www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 may 2023-cü il Cümə № 91 (8227) Qiyməti 60 qəpik

**Xəbər**

## Paytaxtın taksi xaosu dərdi

yazısı səh.12-də

**Gündəm**

### Moskvada üçtərəfli görüşdən əvvəl nə baş verib?



Avrasiya İqtisadi Şurasının iclasında qonaq qismində iştirak edən İlham Əliyev Paşinyanın yalanlarına tutarlı cavab verdi

yazısı səh.6-da

### ABŞ-ın qoşunların sərhəddən geri çəkilməsi təklifi

yazısı səh.4-də

### Paşinyanın israr etdiyi 1975-ci il xəritəsi - Azərbaycan üçün tələ

yazısı səh.8-də

### KTMT Qarabağı Azərbaycan ərazisi kimi tanımır?

yazısı səh.9-da

### Avropa Məhkəməsindən qərar anonsları

yazısı səh.11-də

### Ərdoğan Kılıçdaroğlunu qabaqladı

yazısı səh.13-də

### Vəkil gənc cüdoçunun öldürüldüyü gündən danışdı

yazısı səh.12-də

### İranda məsciddən qaçırlar, bizdə Xameneyiyə biət edirlər...

yazısı səh.10-da

### Britaniya azərbaycanlı minatəmizləyənlərə təlim keçəcək

yazısı səh.5-də

### "Qərb Qarabağdakı vəziyyətə müdaxilə etməyə çalışır" - Şoyqu

yazısı səh.4-də

### Ötənilki büdcənin detalları açıqlandı: rəqəmlər nə deyir?

yazısı səh.15-də

# PRİQOJİN "SİLAHI" BU DƏFƏ BAKIYA TUŞLADI - AZƏRBAYCANA HÜCUM

Ermənistanın hökumət başçısının Azərbaycanın ərazi bütövlüyünü tanıması Rusiyadakı bəzi çevrələri niyə həyəcanlandırıb?



yazısı səh.7-də

# Bakıda ofisi olan USAİD-in anti-Azərbaycan bəyanatı

Bu dəfə USAİD-in ermənipərəst rəhbərinin köməkçisi "dilə gəldi"; **ekspert:** "Sərsəm iddialardan əl çəkməsələr..."

yazısı səh.3-də



Kərim Vəliyev

### Generalın İslamabad səfərinin pərdəarxası

yazısı səh.5-də



### Şeydayev "Qarabağ"ı tərk edib "...Yunayted"ə keçir

yazısı səh.2-də



Lui Bono

### "Qafqaz canişini" qəfil Bakıya gəldi - niyə indi?

yazısı səh.6-da




## Ermənistanda Bakıya istiqamət göstərən lövhə quraşdırıldı

**Ermənistan ərazisində Azərbaycana istiqamət göstərən lövhələr quraşdırılıb. Bakupost.az xəbər verir ki, bu barədə “Paralel Z” teleqram kanalı video paylaşıb.**

Videoda danışan şəxs Azərbaycan sərhədindən 500 metr aralıda - Ermənistanın Hayqeovan kəndində Azərbaycana istiqamət göstərən lövhələr yerləşdirildiyini bildirir: “Burada Bakıya qədər 458, Gəncəyə qədər isə 98 km məsafə olduğu yazılıb. Əgər sülh müqaviləsi imzalansa, bu ərazinin taleyi necə olacaq? Burada ermənilər yaşayır. Onlar buranı tərk edəcəklər? Bu o deməkdir ki, Paşinyan Ermənistan pasportu olan 120 min ermənini, erməni kəndlərini Azərbaycana vermək istəyir. Biz bunun qarşısını necə ala bilərik. Düzü, bilmirəm”.

Qeyd edək ki, Hayqeovan Azərbaycanın hazırda Ermənistanın nəzarətində olan Barxudarlı kəndinə qonşu kənddir.

## Bəxtiyar Hacıyev həbsdə qaldı



**Bakı Apelyasiya Məhkəməsi ictimai fəal Bəxtiyar Hacıyevin ev dustaqlığına köçürülməsindən imtina ilə bağlı şikayətini təmin etməyib.**

Onun vəkili Fəxrəddin Mehdiyevin “Turan”a verdiyi məlumata görə, B.Hacıyev prosesdə iştirak edib və məhkəmədən istintaqın uzadılmasına hüquqi qiymət verməyi xahiş edib.

Vəkilin sözlərinə görə, B.Hacıyev barəsində heç bir istintaq hərəkəti aparılmır və onun həbsdə saxlanılması əsassızdır. Lakin məhkəmə şikayəti təmin etməyib.

Vəkil həmçinin uzunmüddətli aclıq aksiyası nəticəsində Hacıyevin səhhətində problemlər olduğunu qeyd edib. “Bəxtiyarın psixoloji vəziyyəti çox gərgindir. Onda panik atak başlayıb. O, dərman içir, amma bunun xüsusi bir təsiri yoxdur”, - deyə vəkil bildirib.

Bəxtiyar Hacıyev ötən il dekabrın 9-da xuliqanlıq və məhkəməyə qarşı hörmətsizlik ittihamı ilə həbs edilib.

## Problemli kreditlər azalıb




**2023-cü ilin yanvar-aprel aylarında Azərbaycanda problemli kreditlər 1,9 milyon manat azalıb. Novator.az bildirir ki, il 593,7 milyon manatla başlayıb, fevralın 1-nə vaxtı keçmiş kreditlər 583,8 milyon manat, martın 1-nə 606,1 milyon manat, aprelin 1-nə 590,5 milyon manat, mayın 1-nə 591,8 milyon manat məbləğində olub.**

Mərkəzi Bank 2015-ci ilin əvvəlində problemli kreditləri 976,3 milyon manat məbləğində göstərib.

2015-ci ilin devalvasiyaları problemli kreditlərin artımına rəvac verib. 2016-cı ilin əvvəlində 1 milyard 508,5 milyon manat, 2017-ci ilin əvvəlində 1 milyard 472,6 milyon manat, 2018-ci ilin əvvəlində 1 milyard 626,7 milyon manat, 2019-cu ilin əvvəlində 1 milyard 585 milyon manat məbləğində problemli kredit rəsmiləşib.

2019-cu ildə fiziki şəxslər 2012-ci il yanvarın 1-dən bağlanmış kredit müqavilələri üzrə devalvasiya kompensasiyaları alıb.

2020-ci ilin əvvəlində ödəniş vaxtı keçmiş kreditlərin 1 milyard 273,1 milyon manat, 2021-ci ilin əvvəlində 893,1 milyon manat, 2022-ci ilin əvvəlində 719,4 milyon manat məbləğində olduğu açıqlanıb

# Şeydayev “Qarabağ”ı tərk edib “...Yunayted”ə keçir



**Ramil Şeydayevin “Qarabağ”ı tərk edəcəyi dəqiqləşib. Qol.az-ın əldə etdiyi xəbərə görə, Ağdam klubu hücumçusuna yeni müqavilə təklif etsə də, o, bundan imtina edib. Beləliklə, futbolçu müqaviləsi başa çatdıqdan sonra - 2023-cü il iyunun 30-da Ağdam komandasından rəsmən ayrılacaq və azad agent kimi istədiyi klubla müqavilə bağlayacaq.**

Yayılan xəbərlərə görə, Şeydayev karyerasını Tailandın “Buriram Yunayted” klubunda davam etdirəcək. Hələlik bununla bağlı nə futbolçunun özü, nə də klublar səviyyəsində rəsmi məlumat verilib. “Qarabağ” klubundan Qol.az-a yalnız o bildirilib ki, Şeydayev klubla müqaviləsi başa çatana qədər komandaya məxsus olacaq. Lakin Qol.az-a məlum olub ki, o, artıq Tailand təmsilçisi ilə 3 illik olmaqla ilkin müqavilə imzalayıb. Onun mövsümə 750 min avro qazanacağı da iddia olunur.

## Ardıcıl 7 gün iş olmayacaq

**Gələn ay üçün iki iş və qeyri-iş günlərinin yerləri dəyişdirilib. Bununla bağlı baş nazir Əli Əsədov qərar imzalayıb.**

Qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2023-cü ilin 27 və 30 iyun iş günləri ilə müvafiq olaraq 24 və 25 iyun istirahət günlərinin yerləri dəyişdirilib.

Beləliklə, iyunun 24-ü (şənbə) və iyunun 25-i (bazar) iş günləri, iyunun 26, 27, 28, 29 və 30-u qeyri-iş günləri olacaq.

Növbəti iki gün 1 və 2 iyul isə şənbə və bazar günlərinə təsadüf etdiyindən ardıcıl olaraq 7 qeyri-iş günü olacaq.

## Polis zəhərlənmədən öldü

**Mayın 25-də saat 05 radələrində polis baş serjantı xəstəxanada vəfat edib.**

DİN-in mətbuat xidmətindən bildirilib ki, 1981-ci il təvəllüdlü Samir İsmayıl oğlu Mustafayev mayın 24-də axşam saatlarında qida zəhərlənməsindən xəstəxanaya yerləşdirilib. Göstərilən tibbi müdaxilələrə baxmayaraq, o, həyatını itirib.

Qeyd edək ki, S.Mustafayev Əlahiddə Çevik Polis Alayında manqa komandiri vəzifəsində xidmət edib.




## Ali Məhkəmə sədri jurnalistlərlə görüşdü

**Ali Məhkəmənin sədri İnam Kərimov, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov və media orqanlarının rəhbərləri ilə görüşüb.**

Ali Məhkəmənin sədri İnam Kərimov qeyd edib ki, media cəmiyyətin hər bir üzvünü onlar üçün əhəmiyyət kəsb edən məsələlər haqqında daha yaxşı məlumatlı olmağa imkan verən faktlarla təmin edir: “Eyni zamanda informasiyanın mötəbərliyinin və dəqiqliyinin yoxlanılması, eləcə də təhlil olunması üçün müxtəlif baxışlara, müzakirə və tənqidlər üçün şərait yaradır. Bütün bunlar isə cəmiyyətdə sağlam rəqabəti təmin etməklə inkişafa dəstək vermiş olur”.

**Ali Məhkəmənin sədri bildirib ki, bu gün ölkəmizdə həm qanunvericilik, həm də məhkəmə praktikası ilə media azadlığı təmin olunur:** “2001-ci ildə ölkəmiz "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulub və həmin vaxtdan Konvensiya ölkə qanunvericiliyinin ayrılmaz tərkib hissəsidir. Bununla da Avropa Məhkəməsinin presedent hüququ yerli məhkəmələr tərəfindən Konvensiyanın tərkib hissəsi kimi qəbul edilərək təcrübədə geniş tətbiq edilir. Bu da nəticə etibarı ilə, media azadlığının ölkəmizin məhkəmələri tərəfindən Avropa Məhkəməsi standartlarına uyğun təmini deməkdir".

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov isə deyib ki, media subyektləri ilə cəmiyyət və dövlət arasında münasibətlərin tənzimlənməsi məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq, medianın fəaliyyətinə mane olan problemlərin həllinə dair təkliflərini dövlət və yerli özünüidarəetmə orqanlarına təqdim etmək agentliyin daim diqqətində saxladığı məsələlərdəndir.

## Bakıda ucuz mənzillər satışa çıxarıldı

**Bakıda keçmiş məcburi köçkünlər üçün tikilmiş 1662 mənzilin satışı davam edir.**

Sosial Xidmətlər Agentliyinin baş mütəxəssisi Adil Əkbərov deyib ki, Bakıda satışa çıxarılan mənzillər dövlət sifarişi ilə tikildiyinə və torpaq dövlət tərəfindən təmin olunduğuna görə maya dəyəri aşağı olub.

Buna görə də bu mənzillər bazar dəyərindən xeyli aşağı qiymətə təklif edilir. Həmin mənzillərin bir kvadratmetri Samuxda 435 manatdan, paytaxtda isə 600 - 800 manatdan başlayır.

Bu mənzillərin satışı iyulun 20-dək davam edəcək.

Sosial Xidmətlər Agentliyinin baş mütəxəssisi bildirir ki, şəhid ailələrinin mənzil təminatı da davam etdirilir. Bu ilin əvvəlindən 260 şəhid ailəsinə mənzillər təqdim olunub. Digər şəhid ailələrinin mənzil təminatı üçün də işlər həyata keçirilir. Bununla bağlı artıq açıq tender elan edilib.

Şəhid ailələri üçün artıq Bakı, Gəncə, Mingəçevir, Şəki, Şirvan şəhərlərində və Salyan, Qax, Ağsu, Ağdaş rayonlarında 1, 2 və 3 otaqlı mənzillərin satın alınması nəzərdə tutulur.

## “Baş redaktor” dələduzluq ittihamı ilə həbs edildi

**“Yaşıl elm” platformasının baş redaktoru Taryel Abdullayev həbs edilib. APA xəbər verir ki, Taryel Abdullayev dələduzluqda ittiham olunur.**

İş üzrə 4 nəfər zərərçəkən şəxs var. Taryel Abdullayev həmin şəxslərə xaricdə təhsil almaq adı ilə dələduzluq etməkdə ittiham edilir.

Nərimanov Rayon Məhkəməsində hakim Vüsal Qurbanovun sədrliyi ilə Taryel Abdullayev barəsində həbs-qətimkan tədbirinin seçilməsi ilə bağlı istintaq orqanının vəsatətinə baxılıb.

Məhkəmə vəsatəti təmin edib və Taryel Abdullayev barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilib.

Taryel Abdullayev bundan sonra məhkəməyə barəsindəki həbs-qətimkan tədbirinin ev dustaqlığı qətimkan tədbiri dəyişdirilməsi ilə bağlı müraciət edib. Məhkəmə onun müraciətini təmin etməyib.

YENİ MÜSAVAT
N 91 (8227) 26 may 2023

# Bakıda ofisi olan USAİD-in anti-Azərbaycan bəyanatı

## Bu dəfə USAİD-in ermənipərəst rəhbərinin köməkçisi "dilə gəldi"; **ekspert:** "Sərsəm iddialardan əl çəkməsələr..."

**ABŞ Beynəlxalq İnkişaf Agentliyinin -USAİD Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Erin Makki Dağlıq Qarabağdakı vəziyyəti narahatedici adlandırıb. "Armenpress"in məlumatına görə, bunu Erin Makki ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində keçirilən dinləmələrdə deyib.**

"Dağlıq Qarabağ bölgəsindəki vəziyyət ciddi narahatlıq yaratmaqda davam edir. Laçın dəhlizinin blokadası nəticəsində Dağlıq Qarabağ vətəndaşları həyati əhəmiyyət kəsb edən xidmətlərdən, tibbi yardımdan və zəruri mallardan məhrumdur və ya məhdud çıxışa malikdir", - USAİD rəhbərinin köməkçisi bildirib.

Qeyd edək ki, USAİD Azərbaycan torpaqlarının işğala məruz qaldığı dönəmlərdə bilavasitə Qarabağdakı separatçılarla işbirliyi aparıb. USAİD-in hazırkı rəhbəri Samanta Pauerin birbaşa və açıq-aşkar anti-Azərbaycan xarakterli mövqeyi, o cümlədən islamafobiya xəstəliyinə mübtəla olması faktı da bir sıra danılmaz dəlillərlə sübuta yetirilib. Yada salaq ki, o, Azərbaycan ekoloqlarının və QHT fəallarının guya Laçın yolunu "bağlamalarını" hədəfə alan ittiham xarakterli fikirlər də yazaraq, yolun açılmasını tələb etmişdi.

Samanta Pauer zaman-zaman Azərbaycana və Türkiyəyə qarşı sırf düşmənçilik mövqeyini nümayiş etdirib, həmçinin irqçi mövqeyi ilə seçilib. USAİD-in rəhbərləyi və şəxsən Samanta Paner əvvəllər də Azərbaycan xalqını təhqir və təhdid edərək sərsəm fikirlərini ictimailəşdirib.

Bir müddət əvvəl isə "İki sahil" qəzetinin baş redaktoru, YAP-ın Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə deyib ki, USAİD başda olmaqla, ABŞ hökumətinə bağlı olan, eləcə də guya müstəqil olan bu cür təşkilatlar vətəndaş cəmiyyətlərinin inkişafına töhfə verməkdən daha çox, siyasi proseslərə müdaxilə etmək, cəmiyyəti çaşdırmaq, ictimai-siyasi prosesləri manipulyasiya etmək, dövlətçilik prinsiplərini zəifləmək məqsədi güdürlər. Onun sözlərindən belə başa düşmək olar ki, USAİD Azərbaycanda vətəndaş cəmiyyətinin sponsoru, rəngli inqilabların hazırlanması prosesinin əsas maliyyəçilərindən biridir. Təəssüf ki, bütün bu kimi faktlar ortada ola-ola USAİD-in Azərbaycan nümayəndəliyi hələ də ölkəmizdəki mövcudluğunu qoruyub-saxlayır.

USAİD-in Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin və rəhbərinin açıqlamaları, iddiaları isə həm uydurma, həm də Azərbaycanın suveren hüquqlarına müdaxilədir.

Bəs belə bir şəraitdə, Azərbaycan USAİD-in anti-Azərbaycan mövqeyini əsas göstərib Bakıdakı nümayəndəliyini tamamilə bağlaya bilərmi?




**Siyasi şərhçi Azər Həsrət "Yeni Müsavat"a bildirdi ki, birincisi, USAİD Azərbaycan və Ermənistan məsələsində neytral yanaşma nümayiş etdirməlidir:** "Əgər söhbət Qarabağdan gedirsə, orada təkcə bir ovuc erməni yaşamır, ora Azərbaycan Respublikasının ərazisinin bir parçasıdır. USAİD nə isə bir kömək etmək istəyirsə, Azərbaycan dövləti ilə danışıqlar aparsın və danışıqlar apararkən, sadəcə, ermənilər üçün nə isə etməyi təklif eləməsin, eyni zamanda Qarabağdan didərgin salınmış azərbaycanlıların hüquqları ilə bağlı da tədbir görsün. Yəni onlar Qarabağdakı 25 min ermənidən ötrü bu qədər hay-küy salırlar, amma həmin ermənilərin sayından 30-40 dəfə çox məcburi köçkün azərbaycanlıların hüquqlarını görməzdən gəlirlər. USAİD məsələdə o zaman ədalətli görünəcək ki, özünü bir ovuc erməninin müdafiəçisi kimi göstərməyəcək. Yardım etmək istəyirlərsə, qanunların tələbinə uyğun şəkildə Azərbaycan dövləti ilə bu barədə danışıqlar aparmalıdırlar və rəsmi Bakının razılığını almalıdırlar. Yaxşı olar ki, USAİD təmsilçiləri təktərəfli formada özlərindən uydurma fikirlərlə erməni müdafiəçisi kimi çıxışlar eləməsinlər. Ona görə də hesab edirəm ki, Azərbaycanın müvafiq dövlət qurumları USAİD-in Bakıdakı nümayəndəliyi ilə, ümumiyyətlə, buradakı mövcudluğu ilə bağlı yeni bir mərhələyə başlamalıdır. Onlar əgər bizim ərazimizdə oturub, haqlarımızı, ərazi bütövlüyümüzü gözardı edirlərsə, təbiidir ki, Azərbaycanda fəaliyyət göstərmələri, mövcud olmaları məqsədəuyğun deyil. Üstəlik də belə bir şəraitdə ki, Azərbaycanla Ermənistan sülh müqaviləsi bağlamağa yaxınlaşır, xalqlar arasında etimadın yaranması üçün ümidlər yaranır və belə bir anda USAİD nümayəndələri pozuculuq mövqeyi ortaya qoyurlar, sərsəm bəyanatlar verirlər. Yaxşı olmazmı ki, onlar sülhə töhvə verəcək mövqe sərgiləsinlər?! Yaxşı olmazmı ki, onlar Qarabağdakı ermənilərin Azərbaycan cəmiyyətində inteqrasiyası üçün təkliflər versinlər?! Əgər USAİD həqiqətən də istəyirsə həmin ermənilər orada normal, insanca, sülh şəraitində yaşasın buyursunlar buna uyğun normal təkliflərini versinlər. Yoxsa durub ermənilərin uydurduqları əsassız iddiaları özləri üçün təbliğat vasitəsi kimi istifadə edirlər. Belə bir təşkilatın Azərbaycanda mövcudluğuna ehtiyac qalmır".

Ekspertin sözlərinə görə, o baxımdan, Azərbaycanın müvafiq dövlət qurumları artıq USAİD-in Bakıdakı təmsilçiləri ilə ciddi söhbət etməli və onlara izah etməlidirlər ki, yardım etmək istəyirlərsə, bunu Azərbaycan üzərindən etsinlər və sərsəm iddialardan çəkinsinlər. Əks halda, nümayəndəliyin mövcudluğu məsələsinə baxılacaq.

❑ **Etibar SEYİDAĞA**
**"Yeni Müsavat"**

# "Təəssüf ki, erməni kilsəsi və Qaregin..."

## QMİ sədri Yuta ştatındakı İsa Məsih Kilsəsinin rəhbəri ilə görüşdü

**Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan Amerika Birləşmiş Ştatlarının Yuta ştatındakı "Son Günlərin Müqəddəsləri İsa Məsih Kilsəsi"nin (Mormon kilsəsi) rəhbəri Devid Bednarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

QMİ-dən bildirilib ki, Şeyxülislam Yuta ştatına səfərini, Senatda və digər rəsmi dairələrdə keçirdiyi yüksək səviyyəli görüşləri məmnunluqla xatırladığını deyib, belə qarşılıqlı səfərlərin ölkələrimiz arasında dinlərarası əməkdaşlığa öz töhfəsini verəcəyinə əminliyini bildirib.

QMİ sədrinin sözlərinə görə, nümayəndə heyətinin Azərbaycana gəlişi əlamətdar günlərə təsadüf edir: "Ölkəmizdə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi təntənə ilə qeyd olunur, qarşıdan isə Müstəqillik Günümüzün növbəti ildönümü gəlir. Ölkəmizin müstəqilliyinin qorunmasında və



möhkəmlənməsində, din-dövlət münasibətlərinin qurulmasında Ulu Öndərin misilsiz xidmətləri var. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu işlər Azərbaycan Prezidenti İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasətin nəticəsində ölkəmizdə multikultural dəyərlərə böyük önəm verilir, dünya üçün örnək olan tolerantlıq mühiti formalaşıb".

**Şeyxülislam Allahşükür Paşazadə qeyd edib ki, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və Ordumuzun qüdrəti sayəsində Ermənistanın ölkəmizə qarşı 30 illik hərbi təcavüzünə son qoyulub, tarixi ərazilərimiz işğaldan azad edilib. Bu illər ərzində bəzi ölkələr, beynəlxalq qurum və təşkilatlar ölkəmizin haqlı mövqeyini müdafiə ediblər:** "ABŞ-ın Yuta Ştatı Xocalı soyqırımını ilk tanıyan ştatlardandır. Rəhbərlik etdiyim nümayəndə heyəti ilə Yutaya səfərimiz zamanı Senatda görüş keçirdik və Senat Azərbaycanla bağlı bəyanat qəbul etdi. Həmin sənəddə ölkəmizdəki dinlər və mədəniyyətlərarası harmoniyanın, tolerantlıq mühitinin yüksək səviyyədə olması xüsusi qeyd edilir. Azərbaycan həqiqətlərinə, onun haqlı mövqeyinə göstərilən belə ədalətli münasibət bizim üçün çox önəmlidir".

**Bugünlərdə Rusiya Federasiyasının Kazan şəhərində Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillə görüşü barədə danışan QMİ sədri Rus Pravoslav Kilsəsinin Azərbaycan və Ermənistan dini liderləri arasında vasitəçilik missiyasını yüksək qiymətləndirib:** "Patriarx həzrətlərinin vasitəçiliyi ilə ermənilərin patriarx-katolikosu II Qareginlə dəfələrlə görüşümüz olub. Dini liderlər xalqları müharibəyə, ədavətə deyil, sülhə çağırmalıdır. Təəssüf ki, erməni kilsəsi siyasi bəyanatlar verir, revanşist çağırışlardan əl çəkmir. Bu isə sülh prosesinə maneçilik törədir, regionda münasibətlərin gərginləşməsinə gətirib çıxarır. Ermənistanın basdırdığı minalar səbəbindən işğaldan azad edilən ərazilərimizdə bu gün də mülki əhalimiz həlak olur".

Şeyxülislam həzrətləri Mormon kilsəsi ilə sıx əməkdaşlıq edən Stirlinq Fondunun ölkəmizin işğaldan azad edilən ərazilərində mina təmizləmə işinə 250 min dollar ianə etdiyini diqqətə çatdırıb, xeyirxah addıma görə təşəkkürünü bildirib.

Səmimi qarşılanmaya görə təşəkkür edən Mormon kilsəsinin rəhbəri Devid Bednar Azərbaycandakı multikultural və tolerant mühiti yüksək qiymətləndirdiklərini diqqətə çatdırıb. Amerikalı qonaq Azərbaycanda müxtəlif xalqların, etnik qrupların və bir çox icma nümayəndələrinin əmin-amanlıq şəraitində yaşamaları üçün hər cür şəraitin yaradıldığını vurğulayıb.

Milli Məclisin sədr müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov ölkəmizin bütün dünyada müxtəlif dinlərin nümayəndələri arasında qarşılıqlı anlaşmanın, həmrəylik hisslərinin bərqərar olmasına çalışdığını və bu baxımdan nümunə olduğunu vurğulayıblar. Çıxışçılar QMİ sədri, Şeyxülislam Allahşükür Paşazadənin bu sahədəki fəaliyyətini, nüfuzlu dini lider kimi regionda və dünyada sülhün əldə edilməsindəki xidmətlərini xüsusi qeyd ediblər.

Tədbirdə Milli Məclisin üzvləri, Azərbaycandakı dini konfessiyaların başçıları iştirak edib.

YENİ MÜSAVAT
N 91 (8227) 26 may 2023

**"Rəsmi Vaşinqton İrəvan və Bakıya sülh sazişi üzərində iş çərçivəsində bəzi ən mübahisəli məsələlərin həlli ilə bağlı təkliflərini təqdim edib". "Yeni Müsavat" xəbər verir ki, bu barədə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin birinci müavini Derek Hoqan Nümayəndələr Palatasının xarici əlaqələr üzrə komitəsinin dinləmələrində bildirib.**

# ABŞ-ın qoşunların sərhəddən geri çəkilməsi təklifi

## Vaşinqton Qarabağdakı etnik ermənilərin "hüquq və təhlükəsizliyi kimi ən mübahisəli məsələlərin həlli üçün bəzi təkliflər irəli sürüb"; **Toğrul İsmayıl:** "Amerika supergüc olsa da, işimizə qarışa bilməz"



D.Hoqan əlavə edib ki, xarici işlər nazirləri Ceyhun Bayramovla Ararat Mirzoyan arasında ABŞ-da keçirilən görüşdə iki tərəf arasında qarşılıqlı, intensiv diplomatik fəaliyyət baş tutub. "Mayın əvvəli dövlət katibi Entoni Blinkenin Azərbaycan və Ermənistan XİN başçıları ilə Vaşinqtonda keçirilən görüşündə tərəflərə sərhəddəki qüvvələrin qarşılıqlı olaraq geri çəkilməsi, gələcək sülh sazişində mübahisələrin həlli mexanizmi, Dağlıq Qarabağdakı etnik ermənilərin hüquq və təhlükəsizliyi kimi ən mübahisəli məsələlərin həlli üçün bəzi təkliflər irəli sürülüb". Hoqan deyib ki, Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədovla görüşüb və onunla münaqişə bölgəsindəki vəziyyəti müzakirə edib. Ona həmçinin Laçın dəhlizi haqda sual verib, Hoqan bildirib ki, dövlət katibi Blinken XİN başçıları ilə görüşdə Laçın dəhlizinin ticari və şəxsi daşımalar üçün açılmasında israr edib.

"Biz tərəflərin fikir ayrılıqlarını aradan qaldırmasına imkan verə biləcək bir sıra təkliflər etdik. Onlar iyunun 1-də Kişinyovda Fransa Prezidenti, Almaniya Kansleri və Avropa İttifaqı Şurasının Prezidentinin iştirakı ilə müzakirələri davam etdirəcəklər. Biz öz addımlarımızı Avropa İttifaqı ilə əlaqələndiririk və Kişinyovda diqqət işi necə başa çatdırmaq üzərində cəmləşdiriləcək, amma bu, uzun yoldur", - deyə Hoqan qeyd edib. Xatırladaq ki, mayın 1-də Vaşinqtonda ABŞ dövlət katibi Entoni Blinkenin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında danışıqlar aparılıb. ABŞ-dakı diplomatik mənbələrə istinadla Azərbaycan mediası görüş zamanı "yol xəritəsi"nin müzakirə olunduğunu bildirib.

Bu sənəddə nəyin əks olunacağına dair konkret məlumat verilmir. Ancaq dövlət katibi Blinken deyib ki, danışıqların gedişi göstərir ki, "biz razılaşmanın əldə olunmasına yaxınıq". Vaşinqtonda keçən görüşlər barədə yazan erməni mediasına əsasən tərəflər Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi, Qarabağ ermənilərinin hüquq və təhlükəsizlik təminatlarının təmin edilməsi, o cümlədən yerli ermənilərlə Bakı arasında müzakirə mexanizminin yaradılması ilə bağlı fikir mübadiləsi aparıblar. Lakin Azərbaycan dəfələrlə bəyan edib ki, bu məsələnin Ermənistanla Azərbaycan arasındakı danışıqlara aidiyyəti yoxdur. Bundan əvvəl Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın sülh sazişi layihəsinə Qarabağda yaşayan ermənilərin hüquq və təhlükəsizliyinin müzakirəsi üçün beynəlxalq mexanizmin yaradılması ilə bağlı bənd daxil etmək təklifini rədd edib. Azərbaycan bu məsələnin qaldırılmasını öz daxili işlərinə müdaxilə kimi qiymətləndirir.

"Sülh sazişinin mətninə mövcud olmayan qondarma Dağlıq Qarabağ Respublikasını salmaq üçün istənilən cəhd qeyri-məhsuldardır", - Prezident İlham Əliyev deyib. Bəzi ekspertlər hesab edir ki, əsirlər mövzusu da Vaşinqtonun önəm verdiyi məsələdir. Hazırda İrəvan Azərbaycanda 33 erməni hərbi əsirin olduğunu bildirir. 44 günlük müharibə başa çatdıqdan bu günədək Azərbaycan 181 nəfəri Ermənistana təhvil verib. Onların 140-ı hərbçi, 41 nəfəri mülki şəxs, o cümlədən 5-i qadın olub. Vaşinqtonun "ən mübahisəli məsələlərlə" bağlı təklifləri nələrdir və bunların müzakirəsi Bakının xeyrinə, yoxsa zərərinədir?

**Ankara Universitetinin professoru Toğrul İsmayıl "Yeni Müsavat"a qeyd etdi ki, təkliflər üçüncü tərəfdən varsa, onun da öz maraqları var. T.İsmayılın fikrincə, qoşunların qarşılıqlı çəkilməsi mövzusu absurddur:** "Biz müharibə aparmırıq. Yəni ifadənin özündə ciddi xəta var. Birincisi, Azərbaycan ərazisindən erməni silahlı qruplaşmalarının çıxarılması müzakirə edilə bilər. Sərhədlərin demarkasiyası isə uzun bir işdir. Erməni əsgəri Qarabağda olduğu halda, sərhəddə qarşılıqlı şəkildə qoşunları geri çəkmək təklifi gülüncdür. Amerika bunu yaxşı bilir. Sanki Azərbaycan Ermənistan ərazisinə daxil olub. Yanlış baxışdır".

**Qarabağ ermənilərinin təhlükəsizliyinə gəlincə, T.İsmayıl hesab edir ki, Azərbaycan qanunları onlara bütün təminatı vəd edir:** "Qarabağın dağlıq ərazisinə azərbaycanlı qaçqınların qayıdışı haqda danışılmır. Hələ də bu məsələ gündəliyə gətirilmir. Təkcə ermənilər deyil, orada yaşayacaq azərbaycanlı əhalinin də haqlarının təmin edilməsi vacibdir. Amerikalılar təklif edirlər, amma üçüncü tərəf olaraq özlərinə uyğun fikirlər səsləndirirlər. Danışıqlarda hər kəs istəklərini dilə gətirir. ABŞ-ın superdövlət olması o demək deyil ki, Azərbaycanın daxili işlərinə müdaxilə edə bilər".

**Azad Vətən Partiyasının sədri Akif Nağı da qəzetimizə açıqlamasında söylədi ki, ABŞ 30 il ərzində münaqişəni ermənilərin maraqlarına uyğun həll etməyə çalışıb. Partiya sədrinin sözlərinə görə, bu gün də həmin xətt davam etməkdədir:** "Vaşinqton və Paris 30 ildə çalışıblar ki, məsələyə nöqtə qoysunlar, sadəcə, Ermənistanın maraqları nəzərə alınmaqla... Rusiya isə dünən də, bu gün də hesab edir ki, münaqişə tam həllini tapmasın. Lakin döyüş meydanında qələbəmizdən sonra bölgədə ciddi surətdə dəyişikliklər var. Ancaq yenə də görürük ki, Dövlət Departamenti mübahisəli məsələ kimi iki mövzunu diqqətə çatdırır. Məgər orada cəmi iki mübahisəli məsələ var? Bu açıqlamadan aydın olur ki, Vaşinqton Qarabağ erməniləri ilə bağlı dialoqda beynəlxalq mexanizm yaradılmasını və qoşunların geri çəkilməsini bildirəndə İrəvanın maraqlarına uyğun təklifləri irəli sürür".

**A.Nağı xatırlatdı ki, Azərbaycan Qarabağ ermənilərinin təhlükəsizliyi mövzusunun onun daxil işi olduğunu dəfələrlə bəyan edib:** "Bakı bu mövzuda geri çəkilmir. Bu mövqe davam etdirilməlidir. Qoşunların geri çəkilməsi İrəvandan da tez-tez gündəmə gətirilir. Bütün məsələlər yekunlaşanda, sərhədlər dəqiqləşəndə Azərbaycan qoşunlarını harada saxlayacağını özü müəyyən edəcək. Sadəcə, ABŞ bu iki mövzuda canfəşanlıq edir. O baxımdan, Azərbaycan geri çəkilməməlidir. Əslində mübahisəli məsələlər çoxdur və üzərinə getməliyik. Bu dediklərimiz isə ikinci dərəcəli mövzulardır".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

## Dövlət Departamentindən sülh danışıqları açıqlaması

**Metyu Miller:** "Biz dünyanın hər hansı bir yerində keçirilməsindən asılı olmayaraq, bu danışıqları dəstəkləyirik"

**"ABŞ Azərbaycanla Ermənistanın sülh müzakirələrini davam etdirdikləri barədə xəbərləri alqışlayır". Dövlət Departamentinin rəsmi nümayəndəsi Metyu Miller belə deyib.**

"Ötən həftə dövlət katibi Blinkenin açıq şəkildə bildirdiyi kimi, "biz bir daha əmin olduğumuzu bəyan edirik ki, sülh əlçatandır" deyən Metyu Millerə görə, birbaşa dialoq "problemlərin həlli və davamlı sülhə nail olmaq üçün açardır. Biz bu məsələdə tərəflərlə birbaşa əlaqə quraraq onları dəstəkləməyə davam edəcəyik".

Millerin şərhləri ABŞ-ın Qafqazda danışıqlar üzrə baş məsləhətçisi Luis Bononun bölgəyə elan olunmamış səfərindən sonra səslənib. Eyni zamanda mətbuat katibi səfərin təfərrüatlarını açıqlamaqdan yayınıb.

Azərbaycan və Ermənistan liderləri arasında Moskva danışıqlarından gözləntiləri ilə bağlı "Turan"ın sualına Miller belə deyib: "Hesab edirik ki, dayanıqlı yekun həllə nail olmaq üçün birbaşa danışıqlar vacibdir. Və bizim fikrimizcə, əgər hər iki tərəf razılığa gələ bilərsə və öz fikir ayrılıqlarını aradan qaldıra bilərsə, bu, tamamilə mümkündür. Biz istər Vaşinqtonda, istər Brüsseldə, istərsə də dünyanın hər hansı bir yerində keçirilməsindən asılı olmayaraq, bu danışıqları dəstəkləyirik".

## "Qərb Qarabağdakı vəziyyətə müdaxilə etməyə çalışır" - Şoyqu

**"NATO Şərqi və Mərkəzi Avropada öz qruplaşmalarını qurmaq üçün Ukrayna böhranından bəhanə kimi istifadə edir". TASS xəbər verir ki, bunu Rusiyanın müdafiə naziri Sergey Şoyqu deyib.**

"Qərb ölkələri Ukrayna hakimiyyətini döyüş meydanında taktiki uğurlar nümayiş etdirməyə vadar edir, ölkəni silahla doldurur, bu da münaqişənin genişlənməsinə gətirib çıxarır və uzadır. Qərb hər vasitə ilə Qarabağdakı vəziyyətə müdaxilə etməyə və Rusiyanın sülhməramlı siyasətini gözdən salmağa çalışır. ABŞ regionda sabitliyi pozmaq üçün Əfqanıstandakı qeyri-qanuni silahlı birləşmələrdən istifadə etmək niyyətindədir", - deyə Şoyqu bildirib.

YENİ MÜSAVAT
N 91 (8227) 26 may 2023

# Generalın İslamabad səfərinin pərdəarxası

## Bayrağında aypara olan üç ölkənin hərbi ittifaqı Avropa və Asiyanın qovşağında yeni güc mərkəzinin yaranmasını təmin edə bilər



**Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Kərim Vəliyev və Pakistan Quru Qoşunlarının komandanı Asim Munir hərbi əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsi məsələlərini müzakirə ediblər.**

Görüş İslamabadda, K.Vəliyevin Pakistana rəsmi səfəri çərçivəsində baş tutub. Görüşdə iki ölkə ordularının qoşun növləri arasında əlaqələrin genişləndirilməsi, Azərbaycan-Pakistan-Türkiyə birgə təlimlərinin keçirilməsi ilə yanaşı üçtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Kərim Vəliyev bu ölkənin federal müdafiə naziri Asif Muhammed Xavaca ilə də görüşüb.

Xavaca hər iki ölkənin ordusunun döyüş qabiliyyətinin artırılması, bu sahədə təcrübə mübadiləsinin aparılması, habelə əldə olunan nailiyyətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Tərəflər birgə təlimlərin keçirilməsi, müdafiə sənayesi sahəsində əməkdaşlıq, o cümlədən qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə edib, Azərbaycanla Pakistan arasında hərbi və hərbi-texniki əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar.





Qeyd edək ki, zaman-zaman Azərbaycan, Türkiyə və Pakistan arasında yeni hərbi ittifaqın yaran biləcəyi haqda danışılır. 44 günlük müharibə dünyaya əslində yeni siyasi-hərbi alyansın qurulduğunu göstərdi. Türkiyə və Pakistan böyük hərbi gücə, Azərbaycan isə regionda cox mühüm strateji ərazidə yerləşən, zəngin karbohidrogen ehtiyatlarına malik dövlətlərdir. Bəzi ekspertlər hesab edir ki, milli təhlükəsizliklərini qorumaq məqsədilə bayrağında aypara olan bu dövlətlər arasında hərbi sahədə müttəfiqliyin rəsmiləşdirilməsinin zamanı yetişib. Türkiyə NATO-da, Azərbaycan və Pakistan Qoşulmama Hərəkatında qalmaq şərti ilə hərbi müqavilələr imzalaya bilər. Eyni zamanda Türkiyə NATO-nun hərbi cəhətdən ikinci böyük dövləti kimi, Pakistan isə regionun nüvə ölkəsi kimi tanındığından bu ölkələrin və Azərbaycanın hərbi müttəfiqliyi Avrasiya regionunda təhlükəsizliyə xidmət edə bilər...

**Politoloq Rəşad Bayramov bildirdi ki, dünyada cərəyan edən proseslər, mövcud hərbi-siyasi gərginlik təbii olaraq dövlətlərarası siyasi və strateji əməkdaşlıq məsələlərini ön plana çıxarır:** "Güc mərkəzlərinin kəskin rəqabəti, həmçinin güclənən geosiyasi mübarizə dövlətlər qarşısında daha səmərəli və etibarlı işbirliyi formalaşdırmaq zərurəti yaradır. Bu baxımdan Azərbaycan-Türkiyə-Pakistan geosiyasi üçbucağında siyasi və hərbi-strateji əməkdaşlığın dərinləşməsi daha vacib hal almağa başlayır.

Bu istiqamətdə indiyə qədər bir sıra vacib addımların atıldığının şahidiyik. 2021-ci il iyul ayının 27-də Milli Məclisdə Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin üçtərəfli görüşündə Bakı Bəyannaməsinin imzalanması şübhəsiz ki, olduqca mühüm əhəmiyyətə malik idi və üç ölkə arasında çoxşaxəli münasibətlərin yeni mərhələdə daha da möhkəmləndirilməsi üçün geniş perspektivlər açdı. Bunun ardınca Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə "Üç qardaş - 2021" beynəlxalq təlimin keçirilməsi də ümumi təhdidlərə qarşı birgə mübarizənin təşkilinə hazırlıq baxımından mühüm addım oldu. Azərbaycan hərbçilərinin Türkiyədə və Pakistanda keçirilən hərbi paradlarda iştirakı isə ölkələr arasında münasibətlərdə əlamətdar hadisə kimi tarixə düşdü.

Baş Qərargah rəisi Kərim Vəliyevin Pakistanda keçirdiyi görüşlər də mövcud münasibətlərin və əlaqələrin daha da dərinləşməsi istiqamətində yeni perspektivlər açır. Məlumdur ki, bu görüşlərdə Azərbaycan və Pakistan arasında hərbi əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsi ilə yanaşı Azərbaycan-Pakistan-Türkiyə birgə təlimlərinin keçirilməsi və üçtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

Pakistanın həm Türkiyə, həm də Azərbaycanla dostluq və qardaşlıq münasibətlərində olması, 44 günlük Vətən müharibəsində Türkiyə ilə yanaşı Pakistanın da birmənalı şəkildə Azərbaycanı dəstəkləməsi üç ölkə arasında hərbi sahədə əməkdaşlığın daha da dərinləşməsində hər hansı bir problemin olmadığını göstərir. Nəzərə alaq ki, rəsmi İslamabad bu gün də Azərbaycanın beynəlxalq səviyyədə dəstəklənməsində xüsusi və təmənnasız rol oynamaqda davam edir.

Üçtərəfli əməkdaşlığın perspektivlərinə gəldikdə isə qeyd edim ki, Pakistanın hərbi-sənaye kompleksi dünyada xüsusi nüfuza malikdir. Bu ölkədə istehsal olunan yüksək keyfiyyətli müasir silah sistemləri Azərbaycan Ordusunun silahlandırılmasında önəmli rol oynaya bilər. Türkiyənin NATO-nun hərbi cəhətdən ikinci böyük dövləti olduğunu, Pakistanın isə regionun nüvə ölkəsi olmasını nəzərə alaraq deyə bilərik ki, Azərbaycanın bu sahədə iki böyük hərbi müttəfiqə malik olması təkcə ölkəmizin deyil, həm də ümumilikdə Cənubi Qafqazın təhlükəsizliyinə xidmət edə bilər.

Haqqında danışdığımız ittifaqın digər ən önəmli cəhətlərindən biri də bu formatın Avropa və Asiya arasındakı tranzit region üzərində olması ilə bağlıdır. Buraya yeni dövlətlərin, xüsusilə də Asiyanın türkdilli dövlətlərinin qatılma perspektivlərini də əlavə etsək deyə bilərik ki, Azərbaycan-Türkiyə-Pakistan ittifaqı Avropa və Asiyanın qovşağında yeni və güclü hərbi-siyasi mərkəzin yaranmasını təmin edə bilər".

**Hərbi ekspert Emin Həsənli bildirdi ki, Kərim Vəliyevin səfəri həm Azərbaycan-Pakistan, həm də Azərbaycan-Türkiyə-Pakistan birgə hərbi təlimləri baxımından çox önəmlidir:** "Bilirsiniz ki, Türkiyədən sonra bizə ən böyük dəstəyi Pakistan verib. Bunu heç zaman yaddan çıxarmırıq. Azərbaycan da Pakistanın haqq işinə dəstək verir. Cənab Prezident bu yaxınlarda Şuşada bir çox mühüm açıqlamalar verdi. Onlardan biri də ondan ibarət idi ki, bəzi postsovet ölkələri Ukrayna, Gürcüstan NATO-ya üzv olmaq istəyirdilər, amma böyük problemlər yaşadılar. Cənab Prezident NATO-nun ikinci böyük ordusuna sahib olan Türkiyə ilə yaxından əməkdaşlıq edilməsinin vacib məqamlarına da toxundu. Eyni zamanda Ali Baş Komandan ordumuzun türk modelinə keçməsini də vurğuladı və bunun ordumuzu daha da gücləndirdiyini qeyd etdi. Həm Azərbaycanın, həm də Pakistanın NATO-nun ikinci böyük ordusuna sahib olan Türkiyə ilə əməkdaşlığı, yeni müasir silahların birgə istehsalı olduqca önəmlidir. Son zamanlar qardaş Türkiyə hərbi sənaye potensialını daha da gücləndirib. Rəcəb Tayyib Ərdoğanın öndərliyində ordunun 80 faizi silah-sursatla təmin olunub. Bu da olduqca böyük uğurdur. Qarşıya hədəf qoyulub ki, bu rəqəm 90 faizə çatsın. Azərbaycan qardaş ölkəsi ilə birlikdə yeni müasir silahların hazırlanması, xüsusilə Türkiyədən müasir silahların alınması baxımından mühüm işlər görür, bunu eyni zamanda Pakistanla birlikdə də edir. Bu da sülhün daha möhkəmlənməsinə bir təminatdır. Azərbaycan, Türkiyə və Pakistanın müstəqilliyi, suverenliyi, regionda və dünyada müstəqil siyasət aparmaq baxımından da çox önəmlidir. Hər bir ölkə üçün onun ordusu həddindən artıq vacibdir. Həmçinin qardaş, müttəfiq ölkələrlə əlaqələr hərtərəfli dərinləşəcək, hərbi, siyasi və iqtisadi əlaqələr daha da artacaq. Hərbi ali məktəblərin daha da modernləşdirilməsi, kadrların hazırlanması, birgə kadrların hazırlanması, birgə təlimlərin keçirilməsi, gələcəkdəki Turan ordusunun yaranması ideyası baxımından da bu əlaqələrin önəmi misilsizdir. Əminəm ki, gələcəkdə də bu əməkdaşlıq yüksələn xətt üzrə davam edəcək".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

## Britaniyalı azərbaycanlı minatəmizləyənlərə təlim keçəcək

**Torpaqlar yenidən istifadə olunmalı, yenidən becərilməlidir. Bunun üçün torpaqlar minalardan təmizlənməlidir. Bunu Ağdamda keçirilən ikinci "Minalarla mübarizə - Dayanıqlı İnkişaf Məqsədlərinə gedən yol" mövzusunda beynəlxalq konfransda Böyük Britaniya Müdafiə Nazirliyinin Partlayışa Qarşı Müdafiə Nümayəndəliyi ofisinin rəhbəri Bert Appleton deyib.**

"Bu auditoriyada minatəmizləyən həmkarlarımız var. Biz uğurlu şəkildə minalar partlamadan təlimlərimizi keçiririk. Biz minatəmzilэmə sahəsində söhbətlərimizi davam etdirəcəyik, mütəxəssisləri Birləşmiş Krallığa dəvət edəcəyik. Biz qadınların da bu sahədə təlimlər keçməyini istəyirik. Minatəmizləmə prosesində qadınların iştirakı lazımdır", - Britaniya rəsmisi vurğulayıb.

## "Qızıl Xaç"ın Azərbaycanda insan qalıqları üzrə layihəsi

**Mayın 23-24-də Azərbaycanda "Məhkəmə arxeologiyası və məhkəmə antropologiyası: humanitar tətbiqlər" mövzusunda ilk beynəlxalq konfrans keçirilib. Konfrans Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu və Beynəlxalq Qızıl Xaç Komitəsinin birgə təşkilatçılığı ilə keçirilib.**

Tədbir Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə həyata keçirilən pilot layihə çərçivəsində baş tutub.

Layihə çərçivəsində aidiyyəti qurumlar itkin düşmüş şəxslərin axtarılması, insan qalıqlarının götürülməsi, analizi və identifikasiyası üzərində birgə işləyərək Azərbaycan tarixində ilk olan məhkəmə arxeologiyası və məhkəmə antropologiyası yanaşmasının əsasını qoymuş olublar.

"İnsan qalıqlarının identifikasiyası uzun prosesdir. Təkcə bioloji nümunələrə arxayın olmaq olmaz. Bu proses zamanı məhkəmə patologiyası, məhkəmə antropologiyası, məhkəmə stomatologiyası və genetika arasında əməkdaşlıq vacibdir", - Beynəlxalq Qızıl Xaç Komitəsinin Məhkəmə- Tibbi Ekspertizası Departamentinin keçmiş rəhbəri, məhkəmə antropoloqu Dr.Luis Fondebrider deyib.

Digər ekspertlərin iştirakı ilə aparılan müzakirə zamanı Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda məhkəmə arxeologiyası və məhkəmə antropologiyasının akademik fənn kimi yaradılmasının vacibliyi vurğulanıb.

YENİ MÜSAVAT
N 91 (8227) 26 may 2023







# Moskvada üçtərəfli görüşdən əvvəl nə baş verib?

## Avrasiya İqtisadi Şurasının iclasında qonaq qismində iştirak edən İlham Əliyev Paşinyanın yalanlarına tutarlı cavab verdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə mayın 25-də Moskvaya işgüzar səfərə gəlib.**

Moskvanın Vnukovo-2 beynəlxalq hava limanında dövlətimizin başçısını Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin və digər rəsmi şəxslər qarşılayıblar.

Prezident İlham Əliyev Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında qonaq qismində iştirak edib. Bundan əlavə, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Tacikistan Prezidenti Emoməli Rəhmon da iclasa videobağlantı vasitəsilə qoşulublar.

Qeyd edək ki, Ali Avrasiya İqtisadi Şurası İqtisadi Birliyə üzv dövlətlərin başçılarının daxil olduğu Avrasiya İqtisadi İttifaqının ali orqanıdır. AİI üzvləri Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya və Ermənistandır.

Kremldə Rusiya, Azərbaycan və Ermənistan dövlət başçılarının görüşü ərəfəsi "Kommersant" qəzeti diqqətçəkən məlumatlar dərc edib.

Qəzetin mənbələri iddia edir ki, mayın 23-də Rusiya paytaxtında Azərbaycan, Ermənistan və Rusiya Federasiyası baş nazirlərinin müavinləri Şahin Mustafayev, Mher Qriqoryan və Aleksey Overçukun rəhbərlik etdiyi üçtərəfli işçi qrupunun görüşü baş tutub. Bildirilir ki, mayın 24-də davam edən görüş zamanı regionda iqtisadi və nəqliyyat əlaqələrinin açılması prosesi müzakirə edilib.

Məlumatda vurğulanıb ki, Moskvadakı üçtərəfli görüşdə ən azı iki sənədin imzalanacağı mümkündür. Onlardan biri baş nazirlərinin müavinləri tərəfindən hazırlanıb və regionda nəqliyyat kommunikasiyalarının blokadadan çıxarılması haqqındadır.

Digər sənəd İlham Əliyev, Paşinyan və Putinin beşinci birgə bəyanatı olacaq. Belə ki, bəyanat üç ölkənin xarici işlər nazirlikləri tərəfindən hazırlanıb.

Ermənistanın "Hraparak" qəzeti isə iddia edib ki, üçtərəfli görüşdə ərazi bütövlüyünün tanınması ilə bağlı protokol imzalana bilər.

Prezident İlham Əliyev Putinə tədbirə dəvət etdiyinə görə təşəkkür edib. Prezident deyib ki, Ermənistan istisna olmaqla, Avrasiya İqtisadi İttifaqı ilə iqtisadi əlaqələr artan xətt üzrə gedir. Dövlət başçısı deyib ki, regionda bütün kommunikasiyaların açılması vacibdir.

Paşinyan sonra söz alaraq iddia edib ki, Prezidentin çıxışında "koridor" ifadəsində guya Ermənistana ərazi iddiası var. Deyib ki, 10 noyabr sənədinin yalnız 9-cu bəndində Laçın koridorundan söhbət gedir. Putin də dolayısı ilə Paşinyanı başa salmağa çalışıb ki, İ.Əliyevin kommunikasiyaların açılması ilə bağlı dediklərindən narahat olmaq lazım deyil. Paşinyan isə dayanmayıb. Kommunikasiyaların açılmasında yalnız Laçın yolu ilə bağlı yenə yalan iddialar irəli sürüb. Deyib ki, üçtərəfli sənəddə Laçın yolu yox, koridor kimi yazılıb. Erməni baş nazir yenə də iddia edib ki, Laçında qoyulan sərhəd-keçid məntəqəsi Qarabağ ermənilərinin həyatını çətinləşdirib. Paşinyan hansısa "blokadadan" danışıb.



İ.Əliyev isə yalan iddialara cavab olaraq bir daha bildirib ki, heç bir blokadadan söhbət gedə bilməz, Azərbaycan vətəndaşı olan ermənilərin hər gün Ermənistana getməsində və qayıtmasında heç bir problem yoxdur, o cümlədən xəstələrin aparılması da "Qızıl Xaç" tərəfindən demək olar ki, gündəlik həyata keçirilir. Prezident deyib ki, Zəngəzur dəhlizinin açılması tələbinin haradasa yazılmasına ehtiyac yoxdur, bu, Azərbaycanın qanuni haqqıdır. İ.Əliyev onu da vurğulayıb ki, Zəngəzur koridorunun açılmasını Rusiya da dəstəkləyir.

Putin isə deyib ki, əsas məsələ ərazi bütövlüyünün tanınmasıdır, digər məsələlər vacib olsa da, texniki xarakterlidir, onları danışıqlarla həll etmək olar.

**Moskvadakı görüş haqda musavat.com və sabahkı sayımızda ətraflı məlumat veriləcək.**

❑ "Yeni Müsavat"

# "Qafqaz canişini"nin gözlənilməz səfəri - niyə indi?

## Qısa müddətdə 3-cü dəfə Azərbaycana gələn Lui Bononun səlahiyyətlərinə Qafqazda baş verən proseslərlə bağlı məsləhətləşmələr aparmaq da daxildir

**Azərbaycan XİN başçısı Ceyhun Bayramovun ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono ilə görüşü keçirilib. XİN-in mətbuat xidmətinin məlumatına görə, görüş zamanı Azərbaycanla Ermənistan arasında sülh prosesi, "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" saziş layihəsi üzrə danışıqların cari vəziyyəti, bu çərçivədə aparılmış son görüşlərin nəticələri və danışıqların perspektivləri müzakirə olunub.**

Bayramov eyni zamanda kommunikasiyaların açılması və delimitasiya prosesi barədə ölkəmizin mövqeyini bir daha diqqətə çatdırıb. Lui Bono ABŞ-ın sülh prosesinə bütün vasitələrlə dəstək verməyə hazır olduğunu bildirib. O, bölgənin inkişafı üçün sülh və əmin-amanlığın təmin edilməsinin zəruri olduğunu diqqətə çatdırıb. "Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar", - deyə XİN-in məlumatında bildirilir.

Qeyd edək ki, Bononun Azərbaycan, Ermənistan və Rusiya liderlərinin Ermənistan-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi üzrə Moskvada keçiriləcək görüşündən bir gün əvvəl Bakıya səfər etməsi diqqət çəkib.

Onu da bildirək ki, bu, Bononun qısa müddətdə Bakıya artıq üçüncü səfəridir. Sonuncu dəfə o, aprel ayında Bakıda olmuşdu. Lui Bono Qafqaz danışıqları üzrə baş müşavirdir və səlahiyyətlərinə təkcə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinin aparılması deyil, bütövlükdə Qafqazda baş verən proseslərlə bağlı məsləhətləşmələr aparmaq daxildir. Qafqaz və ətraf bölgələrdə isə kifayət qədər ciddi proseslər baş verir. ABŞ canişininin qısa müddətdə üçüncü dəfə, həm də Moskva görüşü ərəfəsi Bakıya səfər etməsi nədən xəbər verir? Bununla ABŞ Azərbaycan üzərindən bölgədə mövqelərini gücləndirməyə çalışır, yoxsa başqa məqsədlər də var?

**Deputat Azər Badamov Azərbaycanın qarşı tərəfə təqdim etdiyi 5 prinsipin Amerika tərəfindən qəbul olunduğunu qeyd etdi:** "Bu görüşün dövlət başçılarının Moskva görüşü ərəfəsində baş verməsini əhəmiyyətli hesab edirəm. Bu o deməkdir ki, ABŞ regionda sülhün yaranmasını dəstəkləməkdə davam edir. Əlbətdə ki, regionda sülhün bərqərar olması Azərbaycanın maraqlarına uyğundur. Çünki torpaqlarımız işğaldan azad ediləndən sonra sülh bağlamaq üçün təşəbbüsü məhz Azərbaycan gündəmə gətirib. Sülhün bağlanması üçün Ermənistana təqdim etdiyimiz 5 prinsip beynəlxalq hüquq normalarına uyğun olduğundan ABŞ tərəfindən də qəbul olunur. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında Qərbin və Rusiyanın fəallaşmasının danışıqlar prosesinə yeni impuls verəcəyini hesab edirəm. Bütün bunlar onu göstərir ki, son vaxtlar aparılan danışıqlar nəticəyönümlüdür və bu danışıqların keçirilməsinə təşəbbüs göstərən tərəflər Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesinin tez baş verməsinə çalışır. Təbii ki, son nəticə Ermənistanın sülh danışıqlarında özünün konstruktiv yanaşmasından asılıdır. Amma onu da qeyd etmək istəyirəm ki, ölkələrimiz arasında suveren ərazi bütövlüklərinə qarşılıqlı hörmət əsasında sülh münasibətlərinin normallaşması və Cənubi Qafqazda uzunmüddətli sülhün yaranmasının alternativi yoxdur".



**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli Amerikanın bu yaxınlığını təsadüfi saymır. Burada qalib Azərbaycanın gücünün əsas rol oynadığını düşünür:** "ABŞ canişininin qısa müddətdə üçüncü dəfə Azərbaycana səfəri onun göstəricisidir ki, Vaşinqton Cənubi Qafqazda ən əsas tərəfdaşı kimi Bakını hesab edir. Azərbaycanın 44 günlük müharibədə qələbəsi regionda çox şeyi dəyişdi. Dünya dövlətləri arasında nüfuzumuz böyüdür. Əvvəl neftimizə, indi isə gücümüzə görə bizə hörmət edirlər. Əsas da hərbi gücümüzə görə bu belədir. Neft, qaz, pulun yanında güclü ordun olmalıdır. Müasir dünyanın tələbləri belədir. Dünya qurulandan hər kəs var-dövlətlə bərabər gücə hörmət edir. Stalinə deyirlər ki, Roma Papası çox güclüdür. Cavabında Stalin deyir ki, Roma Papasının neçə tankı var? ABŞ-da görür, anlayır ki, regionumuzda ən güclü ölkə Azərbaycandır. Ona görə amerikalı siyasilər, diplomatlar ölkələrində erməni diasporunun nüfuzlu olmasına rəğmən, Ermənistana deyil, Azərbaycana səfər edirlər. Çünki Azərbaycanın Ermənistan və Gürcüstandan daha güclü, nüfuzlu və müstəqil dövlət olduğunu bilirlər. Gürcüstan Rusiya və Qərb arasında qalıb, hələ də seçimini tam edə bilmir. Gürcüstanın prezidenti Fransa vətəndaşı, baş naziri rusyönümlü, müxalifəti isə ABŞ-a tərəf baxır, xalqı isə heç özü bilmir nə istəyir. Bax belə kalambur və ya kampot. Ermənistanda vəziyyət daha tragikomikdir. Paşinyan ölkənin suverenliyini bir neçə ölkəyə verib. Zəngəzuru İrana, Gümrünü Rusiyaya, İrəvanı isə Qərbin nəzarətinə verib. Ermənistan indi bir neçə sahibin qulluqçusu rolunda çıxış edir. Belə bir vəziyyətdə təbii ki, ABŞ, Azərbaycana sifətini çevirəcək və bizimlə daha yaxından münasibətlər qurmağa çalışacaq. Təbii, bu o demək deyil ki, ABŞ Azərbaycanı dəstəkləyir. Amma bu vəziyyət Bakı və Vaşinqtonu yaxınlaşdıra bilər. Düşünürəm ki, Azərbaycan ABŞ-la qurula biləcək yeni münasibətlərdən öz xeyrinə istifadə etməyi bacarmalıdır. Təbii ki, Vaşinqtonun da öz maraqları var. Azərbaycanla münasibətləri qurmaq vasitəsilə amerikalılar Cənubi Qafqazda mövqelərinin güclənməsinə çalışır. ABŞ təklif etdiyi sülh müqaviləsində əsasən də Azərbaycanı razı salmağa çalışır. Bununla da bu məsələdə Rusiyanı üstələmək istəyirlər. Əgər Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi ABŞ-ın vasitəsilə ilə imzalansa, bu, Vaşinqtonun Moskva üzərində ciddi qələbəsi olacaq. Bunu Kremldə də bilməmiş deyillər. Bunun baş verməməsi üçün ruslar ilk öncə Paşinyana təzyiq edirlər. Çünki Ermənistan Rusiyadan asılı vəziyyətdədir. Paşinyanın Moskvada görüşdən sonra durub deməsi ki, Rusiya Ukraynaya müharibədə uduzsa, bu, Ermənistana hansı fəlakətlər gətirəcək, düşünmək istəmirəm belə söyləməsi Nikolun açıq-aydın Moskvaya verdiyi dəstəyi idi. Qərb və Ukraynadakı tərəfdaşlarımıza Paşinyanın bu açıqlamasını Ermənistanın rəsmi mövqeyi kimi göstərməliyik və bununla da Azərbaycanın Qərbə daha yaxın olduğunu nümayiş etdirməliyik. Rusiya-Ukrayna müharibəsi açısından Paşinyanın Ermənistanı düşünərək belə Moskvaya tərəf açıqlamasını Qərbin gözü qarşısında antierməni təbliğatına çevirməyi bacarmalıyıq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Priqojin "silahı" bu dəfə Bakıya tuşladı - Azərbaycana hücum

## Ermənistanın hökumət başçısının Azərbaycanın ərazi bütövlüyünü tanıması Rusiyadakı bəzi çevrələri niyə həyəcanlandırıb?

**Ermənistanın baş naziri Nikol Paşinyan mayın 22-də keçirdiyi mətbuat konfransında birmənalı və aydın şəkildə keçmiş Dağlıq Qarabağ bölgəsini Azərbaycanın bir hissəsi kimi rəsmən tanımağa hazır olduğunu bildirdikdən sonra erməni revanşistləri və müxalifəti tərəfindən hücuma məruz qalıb.**

Ermənistanın Qarabağdan imtinasını Moskvanın Cənubi Qafqazdakı maraqlarına birbaşa təhdid hesab edənlər arasında Rusiya mediası da var. Bəzi rusiyalı ekspertlər daha da irəli gedərək, Qarabağ ermənilərini Abxaziya və Cənubi Osetiya nümunəsi ilə "referendum" keçirib Rusiyaya ilə birləşməyə çağırırlar. Haqqın.az xəbər verir ki, Rusiyada Paşinyanı tənqid və ittihamlara əsasən "Vaqner" muzdlularının rəhbəri Yevgeni Priqojinin media holdinqinə daxil olan mediada rast gəlinir. "Vahid Rusiya" Partiyasının üzvü və Tula Regional Dumasının deputatı İlya Stepanova məxsus media holdinq də bu sırada yer alır. Bu yazılarda əsas tezis budur ki, Paşinyanın "Qarabağı təslim etmək" planının0 arxasında ABŞ dayanır və onun əsas məqsədi Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq və hərbi fəaliyyətinə son qoymaqdır. Məsələn, "SM.news" saytında dərc olunan məqalədə deyilir ki, Nikol Paşinyanın Qarabağı "təslim etmək" məqsədi daşıyan "siyasi dastan" başa çatmaq üzrədir. "Birincisi, Paşinyanı Ermənistanın sadə vətəndaşlarının və erməni lobbisinin mövqeyi maraqlandırmır. Təbii ki, Azərbaycan silahlıların təslim olması kimi sırf texniki məsələlər istisna olmaqla, Qarabağ erməniləri ilə heç bir danışıq aparmayacaq. Əslində Paşinyan, sadəcə olaraq, öz vətəndaşlarına xəyanət edib". **Nəşr politoloq Sergey Mixeyevin açıqlamasına istinad edir:** "Hətta Paşinyan müxalifətdə olanda onun Qarabağı təslim etməsi üçün Ermənistan rəhbərliyinə hazırlandığı barədə artıq söz-söhbətlər var idi. O, hakimiyyətə gələndən sonra bu söz-söhbətlər öz təsdiqini tapmağa başladı". **"SM.news" "ermənilərə vəziyyətdən çıxış yollarını göstərmək" qərarına gəlib. Nəşr yazır:** "Bu vəziyyətdə Qarabağ sakinlərinin üç yolu var: ya qovulma, ya assimilyasiya, ya da referendum keçirib Rusiyanın tərkibinə daxil olmaq. Amma dördüncü-radikal variant da var: Paşinyanın başçılıq etdiyi indiki hakim elitanın boynunu sıxıb ölkənin taleyini öz əllərinə almaq". Rusiya XİN səviyyəsində Paşinyanın son mövqeyinin qıcıqla qarşılandığını müşahidə etməkdəyik. Açıq şəkildə bu mövqe ifadə olundu, M.Zaxarova səviyyəsində. Göründüyü kimi, bu mövqelər hətta erməni revanşistlərindən də kəskindir. Bəs niyə Priqojinə yaxın media bu "işi" üzərinə götürərək Paşinyan üzərindən Azərbaycanı hədəf alıb?

**Deputat Sahib Alıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, şimaldan belə anti-Azərbaycan mövqelər gözləniləndir:** "Məgər ancaq Priqojinə bağlı mediada Rusiyanın Paşinyanın Qarabağı Azərbaycanın bir hissəsi saymasından narazılıq var? Bu narazlıq "Valday" Beynəlxalq Diskussiya Klubunun toplantısında ən yüksək səviyyədə də dilə gətirilmişdi. Və sual olunur, Rusiyada qabardıldığı kimi, ABŞ-ın təkidi ilə yox, Paşinyan ancaq və ancaq öz xalqının maraqlarını nəzərə alaraq Azərbaycanla sülh anlaşması imzalasa, bu, moskvadakıları qane edir? Əlbəttə yox, ona görə də Priqojinə bağlı mediada belə fikirlərin yer alması, "Vaqner"in yaradıcısının öz təşəbbüsü deyil, Qərbə bağlı liberallar qarışıq Rusiyada hələ də içərisində böyük imperiya həsrəti gəzdirənlərin hamısının ortaq yanaşmasıdır".

Maraqlısı budur ki, son günlər rus mediasında Azərbaycana qarşı mövqelər daha çox tirajlanır. Paşinyan sanki Rusiyanın bir hissəsini Azərbaycan ərazisi kimi tanıyıb, Qarabağı yox.

**S.Alıyev:** "Bu mövqe həmişə olub, sadəcə, indi belə informasiya vibrosu hər iki tərəfə təzyiq məqsədi daşıyır, vəssalam" .

**Sosial Tədqiqatlar Mərkəzinin (STM) icraçı direktoru, hüquq müdafiəçisi Sahib Məmmədov bildirdi ki, Cənubi Qafqazda davamlı sülhün olmamasında maraqlı qüvvələr, mərkəzlər və dövlətlər var:** "30 ildən artıq davam edən işğal dövründə də belə idi, indi də belədir. Rusiyanın bəzi hakimiyyət dairələri, Ermənistanın maraqlarından çıxış edən Rusiyadakı ayrı-ayrı vəzifəli şəxslər, deputatlar, hətta hərbi çevrələrin nümayəndələri, müxtəlif media qurumları Rusiya dövlətinin iştirakı olmadan istənilən sülh danışıqları prosesi intensivləşərkən buna qısqanclıqla yanaşırlar. "Vaqner" adlanan və hüquqi baxımdan özəl olan hərbi qruplaşmanın nəzarətindəki mediada başlanmış ritorika da bununla bağlıdır. Paşinyanın ABŞ və Brüssel danışıqlarından sonra verdiyi açıqlamalar Rusiyadakı bəzi dairələri narahat edir. Onlar belə açıqlamaları ilə həm Azərbaycana, həm də Paşinyan hakimiyyətinə təzyiq etməyə cəhd edir". **S.Məmmədov şimaldakı təhlükəli planlar haqda da anons etdi:** "Əslində Rusiyada olan bəzi dairələr Qarabağın ermənilər yaşayan hissəsində Dnestryanı tipli bir qondarma qurum yaratmaq üçün ideyalar səsləndiriblər. Bu, birinci dəfə deyil. Amma bu dairələr unudur ki, Qarabağ ərazisi nə Cənubi Osetiya deyil, nə Abxaziya, nə də Dnestryanı. Qarabağda Rusiya pasportları paylanan kimi ermənilər köçüb gedəcək Soçiyə. Onsuz da hazırda Rusiyanın dotasiyasında olan xeyli ərazilər var. O qədər də varlı olmayan və müharibəyə ciddi xərc çəkən Rusiyaya belə bir anklav lazımdırmı? Ümid edək ki, Rusiyaya rəhbərlik edənlər daha praqmatikdirlər və regionda gedən prosesləri, Azərbaycanın qlobal səviyyədə artan nüfuzunu, müstəqil xarici və iqtisadi siyasətini, Türkiyə ilə olan müttəfiqlik münasibətlərini düzgün qiymətləndirə bilirlər". **STM-in icraçı direktoru əlavə etdi ki, bununla belə, sülh danışıqlarının asan getməyəcəyi əvvəldən bəlli idi:** "Tərəflərdən biri müstəqil xarici siyasəti olan Azərbaycan, digəri isə böyük güclərin əlində dubinka olan Ermənistandır. Ermənistanın Qərbə doğru sürüşmə meylinə rəğmən o, Rusiyanın forpostu olaraq qalmaqdadır. Ermənistanın iqtisadiyyatı, az qala bütün kommunikasiyası, o cümlədən dəmir yolları Rusiya şirkətlərinin idarəçiliyindədir. Ermənistanda Rusiyanın xarici ölkələrdə olan ən böyük hərbi bazası yerləşir. Ölkənin sərhədlərini də Rusiya sərhəd qoşunları qoruyur. Belə olan halda bu hədələr daha çox Ermənistana yönəlib, nəinki Azərbaycana". **S.Məmmədov qeyd etdi ki, Moskvadakı yüksək səviyyədə görüş ərəfəsində belə ritorika gözlənilən idi:** "Paşinyan hakimiyyəti isə çətin durumdadır. Bir tərəfdən xarici basqılar, o biri tərəfdən daxildə olan və xarici qüvvələrə bağlı olan qüvvələrin müqaviməti, ən əsası da yüzillik boyu xəstə ideologiya ilə şüurları manipulyasiya olunan erməni xalqının müqaviməti. Bütün hallarda 3 il bundan əvvəlkindən fərqli olaraq, zaman bizim xeyrimizə işləyir".



**Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov qeyd etdi ki, Rusiya mətbuatında son zamanlar Qarabağla bağlı bəzi absurd fikirlərin peyda olması ona zərrə qədər təəccüblü görünmür:** "Onlar zaman-zaman bu mövzuda öz maraqlarından çıxış edərək bəzi reallıqdan uzaq fikirlər səsləndirir və bundan sonra da daha çox yazıların olacağı şübhəsizdir. Sırf rus şovinist mövqeyi, qonşu dövlətlərin ərazi bütövlüyünə hörmətsizlik, absurd "Rusiyaya birləşmək", Paşinyana təzyiq göstərmək kimi çağırışlar olub və bundan sonra da biz belə çağırışların şahidi olacağıq. Nə olur-olsun, nə ermənilər, nə də onlara havadarlıq edən şəxslər öz çirkin niyyətlərinə çatmayacaqlar. Priqojinə yaxın mətbu orqanda bu cür yazıların məhz indiki zamanda dövriyyəyə buraxılması isə onu deməyə əsas verir ki, bu proses idarə olunur. Paşinyanın Qarabağ yükündən azad olmaq üçün səsləndirdiyi fikirlər Moskvanın bölgə barədə planları ilə üst-üstə düşmür və onların uzaqgədən məqsədlərini heçə endirir". Polkovnik bildirdi ki, biz 30 ilə yaxın müddətdə Qarabağda baş verən hadisələrin fonunda kimin nə etməsini yaxşı bilirik və artıq görürük: "İndi də erməni revanşistlərin yenidən önə çıxarılması o deməkdir ki, maraqlı qüvvələr Qarabağda yenidən vəziyyəti daha da gərginləşdirəcək və tərəflər arasında sülh müqaviləsinin imzalanmasını xeyli gecikdirəcək. Moskvada baş tutacaq görüşdən sonra biz yəqin ki, bəzi suallara cavab tapacağıq".

**Politoloq Məhəmməd Əsədullazadə Azərbaycanın kifayət qədər üstün mövqedə olduğuna diqqət çəkdi:** "Baş nazir Nikol Paşinyan yaxşı bilir ki, Azərbaycanla sülh müqviləsi bağlamasa, Ermənistan iqtisadi blokadada qalacaq və Rusiyanın təsiri ölkəsində həlledici olacaq. Sülh müqaviləsinin bağlanması məhz Qarabağın Azərbaycanın rəsmən və real olaraq tərkib hissəsi kimi qəbul edilməsidir. Paşinyan artıq bu reallığı qəbul edib. Xalq da Qarabağın Azərbaycanın tərkibində olmasını, Azərbaycanın 86.6 min kv.km-lik əraziyə malik olduğunu qəbul edib. Bu açıqlama Rusiyada narahatlıqla qəbul edildi. Rusiya tərəfi Qarabağın Ermənistan tərəfindən Azərbaycan ərazisi kimi rəsmən qəbul edilməsini regionda maraqlarına zidd hesab edir. Uzun illərdir ki, Qarabağ məsələsindən məharətlə istifadə edərək Ermənistanı forposta çevirib, Azərbaycana da təzyiq siyasəti həyata keçirib. Bu rıçaqlar Rusiyanın əlindən çıxdığına görə Ermənistanda Rusiya agenturası və Rusiya mətbuatı Paşinyana, həmçinin Azərbaycana qarşı qara piar aparır. Rusiya da başa düşür ki, Nikol Paşinyanın Azərbaycanla sülh müqviləsi bağlaması Cənubi Qafqazda yeni geosiyasi nizam yaradacaq. Bu da Rusiyanın Cənubi Qafqazdan getməsi ilə nəticələnəcək".

**Digər hiyləgər plana gəldikdə, M.Əsədullazadə qeyd etdi ki, ümumiyyətlə, Qarabağda hər hansı bir referendumun keçirilməsi də mümkün deyil:** "İlk növbədə Azərbaycan tam sərhədlərinə nəzarət edir.Qarabağın Rusiya ilə heç bir sərhədi yoxdur. Rusiyanın Xankəndidə bir qrup separatçıdan istifadə etməsi mümkün deyil. Cənab prezident İlham Əliyev strateji siyasət ortaya qoyaraq, Ermənistana Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu qəbul etdirdi. Həmçinin Rusiyanı kifayət qədər neytrallaşdırdı. Rusiyada bir neçə mətbuatın anti-Azərbaycan isteriyası proseslərə təsir edəcək gücdə deyil. Priqojinə yaxın mətbuatın Azərbaycanı hədəf seçməsi əsasən Kremldən verilən tapşırıqdı. Bununla Kreml iz azdırır".

**❑ E.PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 91 (8227) 26 may 2023



# Qolbağın açılmasında yeni qaydalar

Zamin HACI
zaminhaci@gmail.com

"Hamam hamam içində,
Xəlbir saman içində"
*(folklordan)*

**Hörmətli oxucularımızın məlumatı vardır, bu yaxınlarda Haaqadakı Beynəlxalq Cinayətlər Məhkəməsi Rusiya Prezidenti Vladimir Putin haqda saxlanma qərarı çıxarmışdır. Ukraynadan çoxlu uşaq oğurlamaq ittihamıyla cinayət işi açılıb, Putin də bu işdə təqsirləndirilən şəxsdir. İş açılandan sonra bütün dünyada səs-küy qopdu, hər dövlət qərara münasibətini açıqlamağa başladı. Münasibət isə konkret bu sual üzərindədir: "Putin bizim ölkəyə gəlsə, onu tutub məhkəməyə təhvil verəcəyikmi?".**

Bəzi ölkələr deyir tutacağıq. Örnək üçün, Almaniya, Avstriya, Moldova... Bəziləri deyir tutmayacağıq. Qərar verməyə çətinlik çəkənlər, nala-mıxa vuranlar, vaxt qazanmağa çalışanlar da çoxdur. Nə şiş yansın, nə kabab məntiqiylə. Qərbdən, Avropadan da çəkinirlər, Rusiyadan da.

Hələlik bu məsələdə Azərbaycanın mövqeyi açıqlanmayıb. Deyəsən, bunu bizdən soruşan olmayıb, açığı. Əslində ölkəmiz həmin beynəlxalq məhkəmənin heç bir sazişini imzalamayıb, onun qərarlarına tabe deyilik, Putin Bakıya gəlməkdə sərbəstdir. Ancaq bütün ehtimallara hazır olmalıyıq. Diplomatik cəbhədə son illərdəki böyük uğurlarımız da bunu tələb edir.

Məsələn, mən Putini tutub Kürdəxanıya salmaq versiyasını bir qədər düşündüm. Yüz faiz əminəm ki, yoldaş Putin oradan sırf dövlətçiliyə sədaqət ruhunda çıxar. Düzdür, ola bilər arada müxalifətə uysun, 300-400 gün aclıq elan eləsin. Lakin bizim hökumətə heç bir kəs təzyiq edə bilməz. Qərarları müstəqil veririk. Putini Rusiyanın qarşıdan gələn müstəqillik günü bayramı - 12 iyun münasibətilə əfv sərəncamına salıb azad etmək də olar.

Ümumilikdə insan hüquqlarına, beynəlxalq normalara münasibətdə böyük islahatlar aparılır. Bugünlərdə onlardan birini baş nazirin sərəncamı vasitəsilə öyrəndik. Sitat: "Məhkum edilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi qaydalarında dəyişikliklər edilib. Dəyişikliklərə əsasən elektron nəzarət vasitələrinin tətbiq edildiyi şəxslər elektron qolbağı açarsa və ərazi məhdudiyyəti pozularsa, monitorinq mərkəzinin dispetçeri dərhal məsul icra məmuruna və ya polis orqanının vəzifəli şəxsinə məlumat verməlidir".

Nə qədər islahat qərardır! Açığı, bu qərardan belə qanmaq olar ki, indiyə qədər elektron qolbaq taxılaraq nəzarətə alınan cəzalı şəxslər (məsələn, ev dustaqları) ürəkləri istəyəndə qolbağı açıb bulvarda, Xızıda, Antalyada gəzməyə çıxa bilirmiş, heç kim də heç kəsə məlumat vermirmiş.

Ancaq bərk durun, qərarın ləzzətli yeri qabaqdadır. Sitat: "Digər dəyişikliyə görə elektron nəzarət vasitəsinin müvəqqəti çıxarılması (elektron qolbağın müvəqqəti açılması və s.) halları genişləndirilib. Şəxs barəsində inzibati həbs növündə tənbeh tədbiri tətbiq edildikdə; barəsində həbs növündə qətimkan tədbiri seçildikdə; nəzarət subyektinə alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə ixtisaslaşdırılmış tibb müəssisəsinə və ya psixi pozuntusu ilə əlaqədar psixiatriya stasionarına yerləşdirildikdə qolbaq açılır".

Fısqırıq. Fantastika. Deməli, indiyəcən ev dustağı olan, qolbaq taxılan şəxsi nəyəsə görə tutub zindana, dəlixanaya və başqa qapalı, mühafizə edilən azadlıqdan məhrumetmə yerlərinə salanda qolbağı açmırmışlar! Uzaq olsun, elə zənn et oturmusan Kürdəxanıda kamerada, ayağında da qolbaq. Hər axşam da nəzarətçi məmur ekranda baxır ki, sən kamerada yerindəsənmi, qolbağın işığı-zadı yanırmı. Türmə içində türmə, onun da içində türmə. Nağıllarda belə şeylər olurdu. Qalaçanı ala-ala gedirsən, hərəsində bir div uzanıb, qızın dizinə baş qoyub. Və sairə - axşam gələrsiniz ardını danışaram. Nağıl kimi həyat yaşayırıq.

Yazıq baş nazir də məcbur olub, bu haqda əlavə qərar imzalayıbdır. Qanunçuluğa hörmət də öz yerində. Çünki hüquqda bir prinsip var, qanunla qadağan edilməyən hər şey mahiyyətcə icazə veriləndir.

Nəsə, bu həftə elə bil qanundan-hüquqdan çox yazdım, özüm də üşəndim. Düşər-düşməzi olmaz, inşallah. Ovcumun içində də "M" hərfi var, qəzetdə yazılana inanaq bu hərfi olanlar uğurlu insanlardır. Görək də. Qanundan çox yazmağım isə gilas mövsümünə görədir. Səbətdən gilas tökülür.

---

**Ermənistanın baş naziri Nikol Paşinyan deyib ki, sərhədin delimitasiya və demarkasiyası 1975-ci ildəki SSRİ Baş Qərargahının xəritələrinə əsasən aparılacaq.**




# Paşinyanın israr etdiyi 1975-ci il xəritəsi - Azərbaycan üçün tələ

## Bakı və İrəvan bu xəritə əsasında sərhədləri dəqiqləşdirsələr, bir sıra tarixi torpaqlarımız Ermənistanda qalır

Onun sözlərinə görə, Rusiya bir neçə dəfə bu xəritələrdən bəhs edib. Paşinyan hesab edir ki, Ermənistanın mövqeyi dəyişməz olaraq qalır, o, SSRİ Baş Qərargahının 1975-ci ildəki xəritələrinə əsasən delimitasiya tərəfdarıdır: "İrəvan delimitasiyanın nəticələrinə görə qoşunların güzgüvari şəkildə geri çəkilməsində israrlıdır. Bu, təhlükəsizliyi təmin edəcək. Bu vəzifə artıq beynəlxalq birlik tərəfindən formalaşdırılıb və bu mühüm haldır. Bakının qoşunların çıxarılması ilə bağlı mövqeyinə gəlincə, hazırda heç bir irəliləyiş görmürük".

"Yeni Müsavat" bildirir ki, SSRİ Baş Qərargahının çoxlu xəritələri var, onların bir çoxu nəşr olunub. Xəritələr 1973-1981-ci illərdə yayımlanıb. Rusiya lideri Putin də bəyan edib ki, xəritələr ölkəsinin Baş Qərargahındadır.

**Bakı Dövlət Universitetinin dosenti, geosiyasət və konfliktologiya üzrə fəlsəfə doktoru, konfliktoloq Kərəm Məmmədov bildirib ki, 1975-ci il xəritəsi Azərbaycana sərf etmir:** "Çünki 60-cı illərin sonunda Qazax və Gədəbəydə ərazilərlə bağlı iddia qaldırılmışdı. 1975-ci illə götürüləndə bizim tarixi torpaqlarımız Ermənistan ərazisində qala bilər. 80-ci illərin ortasında isə Ceyrançöl ərazisindən yüz hektarlarla ərazimizi guya Ermənistanın otlaq ərazisi yoxdur adı ilə bizim rəhbərlərdən birinin başını aldadıb ələ keçirmişdilər". K.Məmmədovun sözlərinə görə, Paşinyan erməni işğalındakı anklav kəndlərimizi Azərbaycanın ərazisi olaraq qəbul etdiyi kimi, Artsvaşen adlandırdığı Gədəbəy ərazisindəki Başkəndin də Ermənistan ərazisi olduğunu bildirməklə demək istəyir ki, Azərbaycanın 8 anklav kəndi geri qaytarılsa, Başkənd də onlara verilməlidir.

Görünən odur ki, Ermənistan sıfır vəziyyətinə, yəni münaqişənin başladığı 1988-ci il vəziyyətinə qayıtmaq istəyir. Növbəti təhlükə o ola bilər ki, 1988-ci il vəziyyətinə qayıdırıq deməklə, "Dağlıq Qarabağın muxtar vilayət statusu"nun bərpasını istəsinlər. Ermənilər hansısa addımı atanda mütləq ki, arxasında bir oyunları var. Ona görə buna hazır olmalıyıq. Qonşu ölkənin ərazisi ilə tam əhatələnmiş anklavlar - Sədərək rayonunun Kərki kəndi 1990-cı ildə, Qazax rayonunun Bağanıs Ayrım kəndi 1990-cı ildən, Xeyrimli, Aşağı Əskipara, Barxudarlı, Sofulu, Qızılhacılı, Yuxarı Əskipara kəndləri 1992-ci ildə Ermənistan tərəfindən işğal edilib. Eyni zamanda Azərbaycan 1992-ci ildə Ermənistan ərazisinin bir hissəsini - hazırda Gədəbəyin Başkənd kəndinə aid olan torpaqları nəzarətə götürüb. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Qazağın 7 kəndi və Kərki ilə bağlı məsələ delimitasiya prosesi çərçivəsində həllini tapmalıdır. Paşinyanın məhz 1975-ci il xəritəsini israr etməsi sadalanan bu faktlarla bağlıdırmı? Erməni baş nazirin xəritələr və qoşunların sərhəddən "güzgü üsulu" ilə geri çəkilməsi istəklərini Azərbaycan qəbul edəcəkmi?

**Erməni kartoqraf Ruben Qalçyanın** sözlərinə görə, Ermənistan-Gürcüstan dövlətlərarası yolunun keçdiyi Qazağın 7 və Naxçıvanın Kərki kəndi Ermənistanın 29.8 min kvadratkilometr ərazisinə daxil deyil. Bundan başqa, Qalçyan qeyd edir ki, həmin xəritələrdə Gorus - Qafan yolunun bir hissəsi də Azərbaycan ərazisindən keçir. Artıq Azərbaycan həmin yola nəzarəti bərpa edib. "70-ci illərin və ya Paşinyanın dediyi kimi, 1975-ci ilin xəritələri əsasında demarkasiya və demarkasiya işlərinin aparılması və həmin xəritələr əsasında qoşunların "güzgü effekti" ilə çıxarılması anklavların geri qaytarılması deməkdir", - kartoqraf söyləyib.

**Professor Qabil Hüseynlinin "Yeni Müsavat"a bildirdiyinə görə, Azərbaycan işğala məruz qalmış tərəfdir. Politoloqun fikrincə, bu gün delimitasiyası müzakirə edilən ərazilər 30 ildən çox ermənilərin işğalı altında qalıb və Ermənistan orada möhkəmlənib:** "Azərbaycan isə yeni-yeni möhkəmlənir. Paşinyanın dediyi "güzgü effekti" ilə qoşunları geri çəkməklə, bundan daha çox Ermənistan qazanmış olacaq. Nəticə etibarı ilə sərhədyanı ərazilərin demilitarizasiyası mümkün olmayacaq, çünki Ermənistan sərhədboyu əraziləri militaristləşdirib". **1975-ci il xəritələrinə gəlincə, Q.Hüseynli bildirdi ki, sovet vaxtında Azərbaycan torpaqlarının pay-püş edilməsi 1920-ci illərdən başlanıb:** "1923-cü ildə Zəngəzur, 1936-cı ilə qədər Dərələyəz və Göyçə mahalı verilib ki, bu da Ermənistanın təxminən 10 min kvadrat kilometr ərazisinin genişlənməsi deməkdir. Ancaq peşəkaş problemi bununla məhdudlaşmayıb, 60-cı illərin sonunda Laçın rayonu ərazisində, Qarasu gölü və onun ətrafındakı otlaq sahələri, xeyli böyük ərazilərdir ki, Ermənistana verilib. Beləliklə, torpaqdan pay vermək prosesi 80-ci illərin əvvəllərinə qədər davam edib. Misal üçün, 70-ci illərin əvvəlində Ceyrançöldən otlaq sahələri, 1983-cü ildə Qazağın 2 min kvadrat kilometr sahəsi meşə və əkin sahələri olaraq Ermənistana verilib". **Q.Hüseynlinin sözlərinə görə, 1975-ci ilə qədər Azərbaycanın demək olar ki, 21 min kvadratdan çox ərazisi Ermənistana bağışlanıb, bu səbəbdən Paşinyan torpaq pay-püşünü ört-basdır etmək üçün həmin xəritələri gündəmə gətirir:** "Ancaq bütün topoqrafik və siyasi xəritələrlə ümumi mənzərənin ortaya çıxarılması lazımdır. Peşkəş edilən ərazilərin geri verilməsi yox, sadəcə, millətçi erməni kəsimə və beynəlxalq aləmə bu faktı çatdırmaq, tarixi yaddaşı yeniləmək üçün bu, bizə lazımdır".

**Politoloq Cümşüd Nuriyevin fikrincə, İrəvan 1975-ci il xəritəsini önə çəkməklə Azərbaycanın Laçın ərazisində qoyduğu postun Ermənistan ərazisində qalmasına çalışdığını ortaya qoyur:** "Azərbaycanla Ermənistan arasında sonuncu dəfə torpaq bölgüsü 1984-cü ildə aparılıb. Nəticədə Azərbaycanın Qazax rayonunun 600 hektardan çox meşə zonasını ermənilər götürür. 1975-ci il xəritəsinə istinad edilməsi Moskva tərəfindən verilən təklifdir. Bu xəritədə Qazağın kəndləri anklav şəklində Ermənistanın tərkibində qalır. Yəni Ermənistanın sərhədi indiki sərhədə gəlib çıxır. Ona görə də İrəvan məhz 1975-ci il xəritəsini gündəmə gətirir. Bakı ilə İrəvan arasında sərhəd dəyişikliyi iki dəfə, 1929 və 1984-cü illərdə baş verib. Bu dəyişikliklər də Azərbaycanın xeyrinə olmayıb. İrəvan 1975-ci il xəritəsini yəqin ki, keçmiş Dağlıq Qarabağın ərazisinə görə istəyir. Çünki həmin dövrdə Hadrutla Ermənistan arasında məsafə çox yaxın idi. Azərbaycan sonradan məsafəni artırdı. Köhnə xəritəyə əsasən ermənilər Gorusdan müəyyən qədər, təxminən 5-6 km. zolaq şəklində Qubadlının ərazisinə daxil olurlar. Bu fonda da Hadrutla Ermənistan arasında məsafə daha qısa olur. Həmin səbəbdən Paşinyan 1975-ci il xəritəsinin üzərində dayanır. Ermənilərin məqsədi şeytani məqsəddir".

**C.Nuriyevin sözlərinə görə, İrəvan bu xəritəyə istinad etməklə Laçında qoyulan postumuzun öz əlamələrində Ermənistan ərazisində qalmasına çalışır:** "1991-ci ildə isə hər iki dövlətin ərazisini təsdiq edən Almatı sənədi imzalanıb. 1975-ci il xəritəsi Azərbaycanın ziyanınadır. Bütün hallarda, Azərbaycan və Ermənistan BMT-yə hansı ərazilər daxilində qəbul olunubsa, sonda məhz o ərazilər də təsdiq olunacaq".

❑ Emil SALAMOĞLU
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 91 (8227) 26 may 2023

**Ermənistanın baş naziri Nikol Paşinyan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) ölkəyə göndərməyə hazır olduğu müşahidəçilərin sayını açıqlayıb. Ermənistan hökumətinin başçısının sözlərinə görə, söhbət monitorinq missiyasının 30-a yaxın üzvündən gedir.**

# KTMT Qarabağı Azərbaycan ərazisi kimi tanımır?

## Politoloq: "Paşinyan həmin açıqlama ilə KTMT-nin mövqeyini sabotaj edir və bunun arxasında…"

Paşinyan daha sonra sensasiya sayıla biləcək açıqlama da verib. "Məhz KTMT Qarabağın da daxil olduğu Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina edir", - deyə Paşinyan bildirib. Ermənistanın baş naziri onun KTMT ilə bağlı tənqidi fikirlərinə reaksiya verən Rusiya XİN-in sözçüsünü də aşağılayıb. Parlamentdə çıxış edərkən bildirib ki, Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi onun bəyanatlarına münasibət bildirməməlidir. "Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi mənim açıqlamalarıma münasibət bildirə bilməz, həmsöhbətlərim Rusiyanın prezidenti və baş naziridir, Rusiyanın ittifaq və mehriban qonşuluq dövlətinin nümayəndəsi isə mənim açıqlamalarıma burnunu soxmamalıdır".

Uzun müddət KTMT-nin Qarabağ münaqişəsi ətrafında tutduğu mövqenin həqiqətən də anlaşılmaz, daha doğrusu, sürüşkən olduğu həqiqətdir. Amma 2019-cu ildən bu qurum o zamankı Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən, yeni Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapması prinsipini dəstəkləmək mövqeyində olub. Belə ki, təşkilatın üzv dövlətləri Rusiya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Belarusla Azərbaycan arasında çox yaxşı siyasi və iqtisadi əlaqələr formalaşıb. Bununla yanaşı, həmin ölkələr tərəfindən dəfələrlə səsləndirilən bəyanatlarda Qarabağ münaqişəsinin həllində ərazi bütövlüyünün əsas prinsip kimi götürülməsinin vacibliyi vurğulanıb. Azərbaycanın beynəlxalq aləmdə möhkəmlənən və 44 günlük müharibədən sonra sərgilədiyi qəti mövqeyinə paralel olaraq KTMT də daxil olmaqla, regional və qlobal aktorların, demək olar ki, hamısı tərəfindən Azərbaycanın ərazi bütövlüyü tanınmaqda və dəstəklənməkdədir. Eyni zamanda təşkilat üzvlərinin münaqişə ətrafında tutduğu mövqedən bəlli olur ki, Ermənistan KTMT-nin üzvü olsa da, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində tutduğu mövqeyə və sərgilədiyi fəaliyyətə görə təşkilat üzvləri tərəfindən dəstəklənmir. Bəs o halda Paşinyanın bu bəyanatı səsləndirməkdə məqsədi nədir? KTMT Qarabağı Azərbaycan ərazisi kimi tanımır?

**Politoloq Anar Əliyev** "Yeni Müsavat"a bildirdi ki, Ermənistanla Rusiya arasında münasibətlər son dövrlər özünün ən kritik mərhələsinə daxil olmaqdadır: "Xüsusilə də Vaşinqton və Brüssel formatları çərçivəsində Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsi istiqamətində müəyyən irəliləyişlərin əldə olunması, sülh müqaviləsinin imzalanmasına ümidlərin yarandığı indiki dövrdə Rusiya bu prosesləri, əsasən də Ermənistan tərəfindən atılan addımları özünün Cənubi Qafqaz maraqlarına təhdid və Ermənistanın xəyanəti kimi qiymətləndirir. Buna görə də mümkün imkanlardan istifadə edərək Ermənistan hakimiyyətinə təzyiqlər həyata keçirilməyə çalışılır. Xüsusilə də Qarabağdakı separatçı qüvvələr və Ermənistandakı revanşist düşüncəli insanların vasitəsilə erməni cəmiyyətində Nikol Paşinyanın erməni maraqlarına münasibətdə xəyanətkar mövqeyini təbliğ edirlər. Bu gün Rusiya mətbuatı tam olaraq bir mərkəzdən idarə olunduğu görüntüsü ilə Paşinyan və onun komandasına qarşı informasiya terroru həyata keçirir. Bunu da bölgədə münasibətlər tənzimlənərsə Rusiyanın maraqlarının təmin olunması rıçaqları əlindən çıxa bilər tezisi ilə izah etməyə çalışırlar. Amma Ermənistan lideri bir qədər daha hiyləgər davranışlar nümayiş etdirir. Paşinyan açıq şəkildə Rusiya maraqları əleyhinə mövqe ifadə etməklə yanaşı, həm də Rusiya ilə münasibətləri qoruyub saxlamağa xidmət edəyən açıqlamalar da səsləndirməkdədir. Məsələn, Ermənistanın KTMT-dən çıxması ilə bağlı məsələnin hələ də aktual olduğunu deməklə yanaşı, KTMT-nin Ermənistana mülki müşahidə missiyası göndərməyə hazır olduğunu və monitorinq missiyasına təxminən 30 nümayəndənin daxil ola biləcəyi haqda fikirlər səsləndirib. Çox maraqlıdır ki, erməni baş nazirin KTMT-nin bölgəyə müşahidəçi missiyası göndərmək fikirləri Avropa İttifaqının bölgədəki uzunmüddətli missiyasının fəaliyyəti dövrünə təsadüf eləyir. Bu iki fərqli qütbləri təmsil eləyən, hətta düşmən qütblər kimi qiymətləndirə biləcəyimiz qüvvələri təmsil edən missiyalar Ermənistan ərazisində eyni vaxtda hansı formada fəaliyyət göstərəcək, onlar arasında ələqə necə koordinasiya olunacaq, bunlar hələ açıq suallar olaraq qalmaqdadır. Eyni zamanda Nikol Paşinyan 22 mayda Ermənistanda mətbuat konfransında son zamanlar səsləndirdiyi bəyanatlara zidd olan bir açıqlama da verib. Faktiki olaraq KTMT adından heç vaxt rəsmi açıqlanmayan bir məlumat vermiş olub. Paşinyan bəyan edib ki, KTMT Qarabağı Azərbaycan ərazisi olaraq qəbul etmir. Ona görə də Paşinyan Azərbaycanın 86,6 min kvadrat kilometr ərazisi olmadığı mövqeyindədir. Amma çox maraqlıdır ki, Azərbaycanı "86,6 min kvadrat kilometr əraziyə sahib olmayan dövlət" kimi "tanıyan" KTMT Ermənistanın 29,8 min kvadrat kilometr ərazisi olduğunu bəyan edib. Digər ərazilərin kimə aid olduğunu isə bəyan etməyiblər. Bu isə onu göstərir ki, bəli, belə davranışlar əslində Ermənistanın qərbyönümlü mövqeyinin dəyişməsi, Rusiyanın nəzarəti altında proseslərdə iştirak etməkdə maraqlı olması məqsədilə atılan manipulyativ açıqlamalardır. Hesab edirəm ki, bu, Nikol Paşinyanın özünün təxribatı ola bilər".

**Politoloq qeyd etdi ki, Paşinyanın KTMT adından manipulyativ təxribatçı açıqlama verməsini sübut eləyən amillər kifayət qədərdir:** "KTMT-yə üzv dövlətlərlə Azərbaycanın münasibətləri Ermənistanın həmin dövlətlərlə münasibətindən daha yüksəkdir. Azərbaycanın KTMT-də əsas güc sahibi olan həm Rusiya ilə, digər üzvlər Qazaxıstanla, Qırğızıstanla, Özbəkistanla, Tacikistanla, Belarusla münasibətləri çox yüksək səviyyədədir, etibarlıdır. Bu dövlətlərin təmsil olunduğu hərbi birliyin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı məsələni sual olaraq qoyması hesab edirəm ki, inandırıcı deyil. KTMT üzvü olan ayrı-ayrı dövlətlərin rəsmilərinin dilindən, həm də KTMT-nin rəsmi sənədlərində uzun illər ərzində Ermənistanla Azərbaycan arasında münaqişənin məhz beynəlxalq hüququn prinsipləri çərçivəsində, yəni dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllində maraqlı olmaları ilə bağlı bəyanatlar olub. Ona görə də Paşinyan həmin açıqlama ilə KTMT-nin mövqeyini sabotaj edir və bunun arxasında heç də KTMT-nin ciddi rəsmi mövqeyi dayanmır. Bu, Nikol Paşinyanın necə qeyri-ciddi, riyakar, qorxaq siyasətçi olduğunu bir daha göstərir. Eyni zamanda həm də Azərbaycanla münasibətlərdə sülh müqaviləsinin imzalanmasına hazır olmaqla bağlı bəyanatlarında qeyri-səmimi olduğunu nümayiş etdirir. Ermənistan lideri hələ Azərbaycanla sülh müqaviləsinin imzalanmasında zəruri olan güclü siyasi iradəyə sahib deyil".

❑ **Etibar SEYİDAĞA**
**"Yeni Müsavat"**



## Ermənistandakı Aİ missiyasında kəşfiyyatçılar var-ittiham

**Qərb üçün əsas məsələ uzunmüddətli perspektivdə Cənubi Qafqazın təhlükəsizliyini və rifahını təmin etmək deyil, Rusiyanı regiondan sıxışdırıb çıxarmaqdır.**

Bunu Rusiyanın müdafiə naziri, ordu generalı Sergey Şoyqu mayın 25-də Minskdə KTMT-yə üzv ölkələrin Müdafiə Nazirləri Şurasının iclasında deyib.

O, buna Avropa İttifaqının (Aİ) Ermənistandakı missiyasını nümunə göstərib. "Buna misal olaraq Avropa İttifaqının (Aİ) Ermənistandakı mülki missiyası deyilən, lakin hərbçilərin və xüsusi xidmət orqanlarının əməkdaşlarının da daxil olduğu missiyanı göstərmək olar. Düşünürəm ki, onların həqiqətdə orada nə etdiklərini izah etməyə ehtiyac yoxdur. Bu baxımdan, KTMT missiyasının regiona göndərilməsi ilə bağlı işi davam etdirməyi zəruri hesab edirik", - Rusiya Müdafiə Nazirliyinin rəhbəri əlavə edib.

## "Putin də öz başının hayındadır…"

**"Putinin hansısa ölkəyə təzyiq göstərmək imkanları kifayət qədər məhdudlaşıb. O, öz başının hayındadır.Təbii ki, Moskva Ermənistanı şirnikləndirmək üçün yenə də Qarabağın "statusu" məsələsini ortalığa ata bilər. Ancaq İrəvan da artıq Azərbaycanın ərazi bütövlüyünü keçmiş Dağlıq Qarabağ da daxil olmaqla, tanıması ilə bağlı mövqeyini qətiləşdirməkdədir". Milli İstiqlal Partiyasının fəxri lideri Etibar Məmmədov Moderator.az-a açıqlamasında belə deyib**

Onun sözlərinə görə, sadəcə, ortalıqda yalnız Qarabağdakı ermənilərin təhlükəsizliyi məsələsi qalır: "Onu da həll eləmək, buna da təminat vermək Azərbaycan üçün bir problem olmayacaq. Yeni Putin Ermənistan hakimiyyətinə əsasən daxildəki müxalifət vasitəsilə təzyiq edə bilər ki, Paşinyanın vəziyyəti gərginləşsin. Lakin məsələ, demək olar ki, həll olunub. Moskva görüşündə də təxminən əvvəlki görüşlərə uyğun bəyanatlar gözlənilir. Və növbəti mərhələdə Kişinyovda da eyni məzmunlu danışıqlar davam edəcək. Yeni fərqli bir şey gözlənilmir".

YENİ MÜSAVAT
N 91 (8227) 26 may 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# "Yolu budur ki, Dini Komitə..."

## İranda məsciddən qaçırlar, bizdə Xameneyiyə biət edirlər...

**Azərbaycanda İranın casus şəbəkələrinin ifşası istiqamətində əməliyyatlar davam edir. İranın molla rejiminə xidmət edən, Azərbaycan ərazisində molla rejimini təbliğ edən xeyli sayda şəxs artıq saxlanılıb. Saxlanılan şəxslərin evlərində, ofislərində və ibadət yerlərində aparılan axtarışlar zamanı molla rejimini təbliğ edən xeyli sayda materiallar, özlərinin "rəhbəri" kimi təqdim etdikləri Xameneyinin və digər ağalarının şəkilləri maddi sübut kimi götürülüb. Maraqlıdır ki, Azərbaycanda xeyli casus şəbəkəsi olan İrana qarşı öz ölkəsində etirazlar səngimək bilmir. Dini alət kimi istifadə edən "Kərimə" ölkəsində insanlar dindən yan qaçır.**



Bizimlə söhbətdə **iranşünas Vidadi Mustafayev** bildirib ki, İranın orta təbəqələri yaşamaq hüququnun tanınması və təmin edilməsi uğrunda aylarla mübarizə aparsa da, hakimiyyət xalqa orta əsr qaydalarını qəbul etdirməyə cəhdlər edir: "Hakimiyyətə qarşı xalqın son etirazlarının mərkəzində məcburi hicaba qarşı etiraz dayansa da, ölkənin aparıcı, müasir düşüncəli "beyin mərkəzləri" xalqın tələbinin ədalətli olduğunu ifadə edir. Hakimiyyətin xalqın rəyi və mövqeyini nəzərə alaraq ona xidmət etməli olduğunu elmi cəhətdən əsaslandırsa da, hakimiyyət öz bildiyindən əl çəkməyərək, xidmətçi deyil, hökmran olduğunu nümayiş etdirmək üçün qız və qadınların məcburi hicaba əməl etməsinə nail olmaq istiqamətində hərəkət edir. Artıq məlum olduğu kimi, geniş etirazlar zamanı İran polisinə təyin edilmiş yeni və etibarlı komandan təşəbbüs göstərərək polisin hicabsızlara və onlara şərait yaradanlara qarşı müasir texnika və texnologiyanın köməyi ilə geniş mübarizəsinə start verib. Yeni komandanın rəhbərliyi altında polisin hicab sahəsində fəaliyyətini qanuniləşdirmək üçün onun artıq tətbiq etdiyi cəza tədbirlərini özündə əks etdirən qanun layihəsi məhkəmə hakimiyyəti tərəfindən hazırlanaraq hökumətə, hökumət də onu nəzərdən keçirib qanun halına salınması üçün məclisə göndərib".

**Ekspert qeyd edib ki, İranda dini hakimiyyətin ən mühüm "nailiyyətlərindən" biri də əhalinin məscidlərdən uzaq düşməsidir**: "İslam dinini və məscidi öz ədalətsiz, talançılıq fəaliyyəti ilə gözdən və nüfuzdan salan teokratik hakimiyyət nəinki əhalinin məscidə getməməsinə nail olub, eləcə də dini təhsil almış şəxslərin cümə imamı vəzifəsini yerinə yetirməsindən imtina etməsinə səbəb olub. Rəsmi məlumata görə, ölkədə olan 63 min məscidin yarısından çoxunda cümə imamı və camaat namazı qılan da yoxdur. Aparılan sorğular göstərir ki, ali dini təhsil almış şəxslər cümə imamı vəzifəsində işləmək istəmirlər. Bunu özünə dərd edən hakimiyyət yaranmış vəziyyətin səbəblərindən biri haqqında maraqlı açıqlama verib. Guya araşdırmalar göstərir ki, dini təhsil alan tülləbların cümə imamı vəzifəsində çalışmaq istəməmələrinin səbəblərindən biri təhsil sistemində məscid menecerliyi ixtisasının olmamasıdır. Deməli, iffət və hicab haqqında kompleks qanun qəbul edilərsə və dini təhsil sistemində məscid menecerliyi ixtisası əlavə edilərsə, hicab, cümə imamlığı və namaz qılanların problemləri həll olunar. Ancaq hakimiyyətin insanların fərdi azadlığına qarşı çıxmaq siyasətinin nəticələri zamanla özünü göstərəcək".

**O ki qaldı İranın Azərbaycandakı casus şəbəkəsinə və insanlara bu cür təsirinə, Vidadi Mustafayev qeyd etdi ki, Azərbaycanda İrana meyl edənlərin sayı o qədər də çox deyil:** "Müəyyən bir kəsimdə meyl var. Bu da bizdə dini dünyagörüşlə bağlı aparılan təbliğatın zəifliyi ilə bağlıdır. Bunu da maarifləndirmə yolu ilə aradan qaldırmaq olar. Təşkilati baxımdan dövlətin gördüyü tədbirlər, digər sahələrdə isə maarifləndirmə işləri gücləndirilməlidir. Eyni zamanda təhsildə azərbaycançılıq ideologiyasının daha geniş təbliğinə diqqət ayrılmalıdır. Ümumiyyətlə, Azərbaycanda müstəqillik dövründə bütün xarici ölkələrin dini təşkilatlarının hamısının burada müəyyən fəaliyyəti olub, təşkilatlar yaradılıb. Onlara qarşı tədbirlər görülüb. Bəzilərinin fəaliyyəti zəiflədilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinin əsasında belə fikir söyləmək olar. Bir yolu budur ki, Dini Komitə bu istiqamətdə fəaliyyəti daha da genişləndirsin, maarifləndirmə işini artırsın. O təşkilatları daim nəzarətdə saxlamaq lazımdır. Eləcə də sosioloqlar müəyyən etməlidir ki, kimlər, hansı kateqoriya insanlar daha tez təsirə düşür, onlarla daha çox təbliğat aparılmalıdır".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ**

# Müharibə rus mədəniyyətini xarabazara çevirir

## "The Guardian": "Rusiyadan ən yaxşıların, düşünən beyinlərin qaçışı sürətlənib"

**Böyük Britaniyanın "The Guardian" qəzetində "Ukrayna müharibəsi rus mədəniyyətini xarabazara çevirir" başlıqlı məqalə dərc olunub. Müəllif londonlu yazar Uilyam Feədir.**



Novator.az saytı məqaləyə istinadən yazır ki, "Rusiya təkcə Lev Tolstoy, Sergey Raxmaninov demək deyil, həm də İosif Stalin, Lubyanka türməsi, füsunkarlığından çox qan üstündə bərqərar olmuş ölkə deməkdir.

Ruslar mədəni irsi uca tutsalar da, ölkədə yaradıcı adam olmaq hər zaman həyatını təhlükəyə atmaq anlamına gəlib: yaradıcılıq aktı eyni zamanda azadlıq aktıdır.

Sovet dövründə düşündüyünü dilə gətirmək əvvəlcə pəncərəsiz qaranlıq otağa salınmaqla, sonra Sibirə sürgün olunmaqla nəticələnirdi. Bu gün Rusiya Prezidenti Vladimir Putinin Ukraynada apardığı işğalçı müharibənin əleyhinə çıxan rusları da eyni aqibət gözləyir. 1906-1911-ci illərdə çar Rusiyasında Nazirlər Kabinetinə sədrlik etmiş Pyotr Stolıpinin sözləri ilə desək, Rusiyada 10 ildən bir hər şey dəyişir, 200 ildə isə heç nə dəyişmir.

Qərblilərə elə gələ bilər ki, rus yazıçıları daim senzura altında yazıb, təxminən sovet dövründəki sayaq bir senzura altında. SSRİ-də bir neçə üstüörtülü misraya görə şairlərin zirzəmilərdə necə güllələndiyini, Sibirdə donub ölməyə məhkum edildiyini tarixdən yaxşı bilirik. Bizə elə gələ bilər ki, həmişə belə olub. Amma müasir dövrdə, ən azı Ukrayna müharibəsinədək vəziyyət fərqli idi.

Putin hakimiyyətinin ilk çağlarında Rusiyada yazarlara dövlətə qarşı çıxacaq qədər azadlıq verilmişdi. 1999-cu ildə mərkəzi hakimiyyətə gələndə Putin Sovet İttifaqının səhvlərindən nəticə çıxarmış adam təsiri bağışlayır, rus ədəbiyyatına, mədəniyyətinə fərqli yanaşma nümayiş etdirirdi. Hökumət yazıçıları nəzarətdə saxlamağa çalışmır, əksinə, onların siyasi dəyərini tanıyırdı. Çünki Putinin xarici aləmə təqdim etmək istədiyi yeni Rusiya üçün yaradıcı adamların varlığı faydalı idi".

**Müəllif yazır ki, Putin hakimiyyətinin ilk dövründə ədəbi-mədəni mühitə belə mülayim yanaşma iki kökə dayanırdı:** "Birincisi, Rusiyada ədəbiyyata tələbat əvvəlki kimi deyildi. SSRİ dövründə yazılan və nəşr olunan əsərlərin, o cümlədən musiqinin, kinonun ciddi siyasi çəkisi vardı. Stalin qiraət həvəskarı idi, ədəbiyyata maraq göstərirdi. Sovet hökumətinin mədəniyyətin hər sahəsini nəzarətə götürməsində əsas məqsəd isə o idi ki, xalq dövləti yeganə gerçəklik, gerçəyi yalnız dövlət kimi anlayıb qəbul etsin.

Putində və onun Kremlə yığdığı digər başkəsənlərdə müasir rus ədəbiyyatına sovet dövründəki sayaq bağlılıq yoxdur. Ona görə onların vecinə də deyildi kim nə yazır. Bunu bilməyə, yəni ədəbiyyata ehtiyacları yox idi. Bu gün rusiyalıların əksəri ilk növbədə televiziya və internetin təsiri altındadır. Putini rusiyalı yazıçıların romanları narahat etmirdi, çünki bu ölkədə ədəbiyyat daha maarifləndirmək, yeni ideyalar yaymaq rolunu oynamırdı.

Putinin yazıçılara tolerant münasibətinin ikinci səbəbi onun fərqli bir diktatura qurmaq kələyində idi. O, sovet hökuməti kimi insanların həyatını başdan-başa nəzarətə götürməyə cəhd göstərmirdi, ona dünyanın, eləcə də rusların ölkədə Avropa sayağı demokratiya qurulduğuna inanması, yəni bu kələyə aldanması bəs edirdi.

Təsadüfi deyil ki, Kremlə hakimiyyətin legitimliyi haqqında suallar ünvanlananda dərhal ölkədə azad mətbuatın olduğunu, müntəzəm demokratik seçkilərin keçirildiyini, ədəbi mühitin çiçəkləndiyini vurğulayırdı. Bir sözlə, yazıçılara, xüsusən dissidentlərə istədiyini yazmaq imkanının verilməsi Putinin öz marağına uyğun idi".

**Müəllifə görə, Rusiyada Putinə qarşı çıxmaq gündən-günə daha təhlükəli işə çevrilib:** "O biri yandan insanların buna ehtiyacı da hər gün artır. Yazıçı, əslində hər kəs həqiqəti söyləməyə borcludur. Susmaq yaradıcı intihara bərabərdir. Rusiyanın neçə-neçə böyük mədəniyyət xadiminin Avropaya, ABŞ-a axışmasının kökü də bundadır. Mühacirət onlara Rusiyada duymadıqları təhlükəsizliyi və azadlığı verir.

Paradoksa baxın. Putin müharibəni Ukraynada rus mədəniyyətini və dilini neonasist təqibindən qurtarmaq cəhdi kimi qələmə verir. Əslində isə müharibə ən yaxşıların, düşünən beyinlərin rus torpağından qaçışını sürətləndirib.

İndi Boris Akunin Londondan, Lüdmila Ulitskaya Berlindən yazır. Sənətkarlar ölkəni tərk etdikcə Rusiya mədəniyyəti solğunlaşır, zənginliyini, rəngarəngliyini itirir, yerində yalnız putinpərəst boz tiplər qalır".

YENİ MÜSAVAT

N 91 (8227) 26 may 2023

**Mayın əvvəlinə Avropa İnsan Hüquqları Məhkəməsində Azərbaycandan 2100 ərizəyə baxılması gözlənilir, təşkilatın saytında bildirilir. "Bu, Strasburq Məhkəməsində araşdırması gözlənilən bütün şikayətlərin 2,7 faizini təşkil edir", - deyə vəkil Xalid Ağaliyev bildirib. "2022-ci ilin sonunda Avropa İnsan Hüquqları Məhkəməsində Azərbaycandan 2150 ərizə olub. Son 4 ayda məhkəmə Azərbaycandan 140 iş üzrə qərarları elan edib", - X.Ağaliyev deyib.**

# Azərbaycandan Avropa Məhkəməsinə şikayətlərin sayında ciddi artım - səbəblər

## Hüquqşünaslar məhkəmə sistemində davam edən ciddi nöqsanlardan danışdı

Azərbaycandan Avropa Məhkəməsinə şikayətlərin sayında artım nə ilə bağlıdır? Bu məsələdə qanunsuz məhkəmə hökmlərinin payı nə qədərdir?

Mövzu ilə bağlı danışan **Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** deyib ki, Azərbaycanda tam ədalətli məhkəmə hakimiyyətini qura bilməmişik. Hüquq müdafiəçisi təəssüflə qeyd edib ki, hazırda ölkədə məhkəmə hakimiyyətindən çox ciddi şikayətlər var: "Və bu tendensiya davam etməkdədir. Azərbaycanda ədalət tapa bilməyən insanların bir çoxu özünə güvənərək ki, daha haqlıdır, o zaman Avropa Məhkəməsinə üz tutur. Bu da təbii ki, Azərbaycan məhkəmə sistemi, dövləti üçün o qədər arzuedilən deyil. Hazırda 2 100 ərizənin Avropa İnsan Hüquqları Məhkəməsində baxılması gözlənilirsə, bu. həddindən artıq çoxdur. Yəni 80 milyonluq və bundan daha çox əhalisi olan, Avropa Şurası üzvü olan ölkələri arasında 10 milyonluq Azərbaycandan 2 100 ərizəyə baxılması bir qədər utancvericidir. Bütün bunlar bir daha göstərir ki, insanların Avropa Məhkəməsinə müraciəti artan xətlə davam edir. Bu isə onunla əlaqədardır ki, yerlərdə qəbul olunan qərarlardan narazı qalan insanların sayı çoxdur. Təbii ki, bəzən Avropa Məhkəməsinə müraciət edənlərin özləri də haqlı deyil, iddiaları rədd edilir, lakin bir iş belə varsa, demək ki, ölkə daxilində iş elə qurulmalıdır ki, Avropa Məhkəməsinə bu cür müraciətlər gedib çıxmasın. 4 ay ərzində 140 iş üzrə qərarın elan edilməsi də olduqca çoxdur. Bu onu göstərir ki, Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən Azərbaycandan gələn ərizə və şikayətlərin baxılması tempi də artırılıb".



**Çingiz Qənizadə Azərbaycan tərəfdən məhkəmə qərarlarının icrası ilə bağlı ciddi problemlərin olmasını qeyd edən Avropa Şurasının Avropa Məhkəməsi Qərarlarının İcrası Departamentinin rəhbəri Kler Ovinin fikirlərinin bir qədər şişirdildiyini qeyd edib:** "Çünki doğrudan da biz hüquq müdafiəçiləri olaraq Avropa İnsan Hüquqları Məhkəməsinin qəbul etdiyi qərarların ölkədə icrasının həyata keçirildiyinin şahidi olmuşuq. Bəlkə də elə şeylər var ki, onu praktik olaraq icra etmək mümkün deyil. Bu baxımdan hesab edirəm ki, hökumətimiz Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrası ilə bağlı əlaqələri gücləndirərək orta məxrəcə gəlməsi istiqamətində də müəyyən işlər aparmalı, əsaslandırmalıdır ki, bu qərarın icrası qeyri-mümkündür, praktik cəhətdən və yaxud nəyə görə icra olunmur.

Beləliklə, əgər Avropa İnsan Hüquqları Məhkəməsinə çox sayda şikayətlər gedirsə, deməkki, Azərbaycanda məhkəmə islahatları tamamilə başa çatdırılmayıb. Doğrudur, yeni işə qəbul olunmuş gənc hakimlər var və onlar çox zəhmət çəkərək, imtahanlardan keçərək bu vəzifəyə sahib olublar, yəni heç bir işə qəbulda hər hansı bir tənənnadan, dırnaqarası maraqlardan söhbət getmir, burada hər şey şəffaf təmin olunub. Lakin məhkəmənin işinin təşkilində problemlər müşahidə olunur. Çünki məhkəmə sədrləri sanki həmin rayonda qəbul olunacaq qərarların yeganə sahibidir. Doğrudur, məhkəmə sədrləri Prezident tərəfindən təyin olunurlar. Lakin bu gün məhkəmə hakimləri qərarların elan edilməsindən öncə məhkəmə sədrləri ilə məsləhətləşmələr aparır. Məhkəmə sədrləri ilə məsləhətləşdikdən sonra qərarların qəbulunun nə olduğunu mən bir hüquqşünas, hüquq fəlsəfə doktoru olaraq anlaya bilmirəm. Bəs onda məhkəmənin müstəqilliyi harada qaldı? Bu hallara son qoyulmalıdır. Məhkəmə sədrləri yalnız məhkəmələrdə işin təşkilinə rəhbərlik etməlidir. Sədrlərin məhkəmədə hakim işləyən digər şəxsin qəbul etdiyi qərara hansısa formada göstəriş verilməsi praktikasına son qoyulmalıdır.

Məhkəmə Hüquq Şurasının da özünün strukturunda da dəyişikliklər olmalı, yenidən qurulmalı, müstəqil olmalıdır. Orada Azərbaycanda tanınmış hüquqşünaslar, pedaqoji praktik fəaliyyəti ilə tanınan və ədalətli insan obrazını yaradan insanlar təmsil olunmalıdır".

**Çingiz Qənizadə qanunsuz, ədalətsiz qərarlar qəbul edən hakimlərin cəzalandırılması məsələsinə də toxunub:** "Əgər hakim bilərəkdən qanunsuz qərar qəbul edirsə, o, artıq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cəzalanmalı şəxslər kateqoriyasına adi edilməlidir. Lakin bu günə qədər xatırlamıram ki, bilərəkdən qanunsuz qərar qətnamə çıxartmasına görə hansısa hakim cəzalandırılsın. Yada salaq, "Tərtər işi"ndə nə qədər hakim qanunsuz qərar, hökmlər çıxarıb. Amma onlar cəzalandırılmır. Niyə? Onu da qeyd etmək lazımdır ki, bu gün məhkəmə hakimiyyətində gənc, savadlı, olduqca ədalətli hakimlər var. Bəzi hallarda məhkəmə sədrləri də var. Son vaxtlar məhkəmələrdə bəraət hökmlərinin, yenidən işə baxmaların, obyektiv araşdırmaların sayı artıb".

**Tanınmış vəkil Əsabəli Mustafayev isə mövzuya bu cür şərh bildirdi:** "Məhkəmələrin fəaliyyəti, müstəqil olması, müstəqil qərar qəbul etməsi, korrupsiyanın olması ilə bağlı ictimaiyyətdə çox ciddi iradlar var. Doğrudur, son 2 ildə müəyyən irəliləyişlər var. Belə ki, bəraət hökmləri, yenidən baxılan işlərin olduğunu, daha ədalətli qərar qəbul olunmasını görürük. Lakin yenə də iddia edə bilmərik ki, bizdə məhkəmələr müstəqildir, korrupsiya halları tam aradan götürülüb. Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icra olunması Azərbaycan məhkəməsinin təkmilləşməsinə təkan verəcək bir amildir. Məlum olduğu kimi, Avropa İnsan Hüquqları Məhkəməsi bütün Avropa hüquq sisteminin inkişafına böyük təsiri olub, ona görə ki, həmin ölkələr o qərarları icra edir. Lakin Azərbaycan icra etmir. Əgər həmin bütün qərarlar icra olunsa, məhkəmələrin müstəqilliyi, ədalətli araşdırma hüququnun təminatı daha da genişlənər, qanunvericilik bazası inkişaf edər".

Əsabəli Mustafayev qeyd **edib ki, son zamanlar Avropa Məhkəməsinin standartlarının tətbiqi ilə bağlı müəyyən tədbirlər görülür:** "Lakin bu kifayət etmədiyi üçün çoxlu sayda şikayətlər gedir. Çünki məhkəmələr 10 il bundan əvvəl hansı qərarı qəbul edibsə, Avropa İnsan Hüquqları Məhkəməsi oxşar iş üzrə insan hüquqlarının pozuntusu olduğunu bildiribsə, məhkəmələr eyni işlər üzrə yenə də oxşar qərarlar qəbul edirlər və işlər yenidən Avropa İnsan Hüquqları Məhkəməsinə gedir. Bu sistem xarakteri alıb və artıq sistem xətasıdır, təkcə məhkəmə xətası deyil. Ali Məhkəmədə olan müəyyən dəyişikliklər, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üçün görülən işlər ümid edək ki, o dərəcəyə qədər çatacaq ki, ölkədə daha çox ədalətli qərarlar qəbul olunacaq və Avropa İnsan Hüquqları Məhkəməsinə gedən şikayətlərin sayı azalacaq.

Əlbəttə ki, hər kəs istəyir ki, məhkəmə çəkişmələri ölkə daxilində öz həllini tapsın, əlavə xərcə, vaxta ehtiyac qalmasın. Lakin çox təəssüf ki, bu alınmır. Biz vəkillər ona görə Avropa İnsan Hüquqları Məhkəməsinə yazırıq ki, məhkəmələrimiz təkmilləşsin, insan hüquqlarına daha çox hörmət olsun, ədalətli qərarların sayı artsın. Onu da qeyd edim ki, Avropa Şurası Azərbaycanda xüsusi olaraq, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrasına dəstək layihəsi həyata keçirir. Bu layihədə bütün məhkəmə qurumları, həmçinin ictimaiyyət nümayəndələri təmsil olunur. Şəxsən mən özüm dəfələrlə həmin layihə üzrə tədbirlərdə iştirak etmişəm. Hiss olunur ki, hökumət Avropa Məhkəməsinin qərarlarının icra olunmasına maraq göstərir. Ümid edirik ki, gələcəkdə bu məsələ öz həllini tapacaq".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Avropa Məhkəməsindən qərar anonsları

**İyunun 1-də Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycandan şikayətlər üzrə yeni qərar və qərardadlar elan edəcək. Aihmaz.org xəbər verir ki, Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunun şikayətində qurumun ofisində axtarış aparılmasının, sənədlərin, kompüterlərin və başqa texniki avadanlıqların, möhür və ştampın götürülməsinin qanunsuz olduğu vurğulanır, Avropa İnsan Hüquqları Konvensiyası ilə verilmiş şəxsi həyata hörmət, birləşmək, mülkiyyət hüquqlarının pozulduğu iddia edilir.**

Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutuna Emin Hüseynov rəhbərlik edir. 2014-cü ildə Emin Hüseynova qanunsuz sahibkarlıq, vergi ödəməkdən yayınma, vəzifə səlahiyyətlərindən sui-istifadə ittihamları ilə cinayət işi qaldırılıb. Emin Hüseynov İsveçrənin Bakıdakı səfirliyinə sığınıb, 2015-ci ildə həmin ölkəyə aparılıb.

Ayxan Axundov, Bəsti Orduxanova və Lətif Əhmədovun şikayətləri mülkiyyət məsələlərini əhatə edir.

Fransanın Strasburq şəhərində yerləşən, hakimləri Avropa Şurasına üzv ölkələrdən seçilən Avropa Məhkəməsi Avropa İnsan Hüquqları Konvensiyasına riayət olunmasına nəzarətə məsuldur. Azərbaycan 1949-cu ildə yaradılmış Avropa Şurasına 2001-ci ildə qoşulub, 2002-ci ildən Avropa Məhkəməsinin təsir dairəsindədir.

# Müstəqillik illərinin nikah statistikası




**2023-cü ilin yanvar-mart aylarında Azərbaycanda 11870 nikah qeydə alınıb. Dövlət Statistika Komitəsinin hesabatına görə, nikahlar 2022-ci ilin ilk rübünə nəzərən 20,3 faiz azalıb, əhalinin hər 1000 nəfərinə 4,7 nikah düşüb.**

Novator.az bildirir ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunduğu 1991-ci ildə əhalinin hər 1000 nəfərinə nikah göstəricisi 10,4 olub. Bu, mütləq rekorddur.

1992-ci ildə hər 1000 nəfərə 9,5 nikah, 1993-cü ildə 8,1 nikah, 1994-cü ildə 6,3 nikah, 1995-ci ildə 5,7 nikah, 1996-cı ildə 5,5 nikah, 1997-ci ildə 6,1 nikah, 1998-ci ildə 5,2 nikah, 1999-cu ildə 4,7 nikah, 2000-ci ildə 5 nikah rəsmiləşib.

2001-ci ildə hər 1000 nəfərə 5,2 nikah, 2002-ci ildə 5,1 nikah, 2003-cü ildə 6,8 nikah, 2004-cü ildə 7,5 nikah, 2005-ci ildə 8,5 nikah, 2006-cı ildə 9,4 nikah, 2007-ci ildə 9,5 nikah, 2008-ci ildə 9,2 nikah, 2009-cu ildə 8,8 nikah, 2010-cu ildə 8,9 nikah sənədləşib.

2011-ci ildə hər 1000 nəfərə 9,7 nikah, 2012-ci ildə 8,6 nikah, 2013-cü ildə 9,3 nikah, 2014-cü ildə 9 nikah düşüb.

2015-ci ildə rəsmi göstərici 7,2-yə, 2016-cı ildə 6,9-a, 2017-ci ildə 6,5-ə, 2018 və 2019-cu illərdə 6,4-ə enib.

2020-ci ildə hər 1000 nəfərə 3,5 nikah qeydə alınıb. Bu kəskin azalma koronavirus pandemiyası fonunda tətbiq edilən toy qadağasından irəli gəlib. Azərbaycanda toy mərasimləri həmin il martın 16-dan 2021-ci il iyulun 1-dək yasaq altında olub.

2021-ci ildə hər 1000 nəfərə 5,6 nikah rəsmiləşib, 2022-ci ildə göstərici 6,1-ə yüksəlib.

YENİ MÜSAVAT
N 91(8227) 26 may 2023

# Vəkil gənc cüdoçunun öldürüldüyü gündən danışdı

## “Biz Ruslanın ömürlük həbs cəzası almasını belə ehtimal edirdik...”


Ruslan Səfixanov    Turan Rüstəmov

**Xəbər verdiyimiz kimi, Şağan Olimpiya İdman Kompleksində gənc cüdoçu Turan Rüstəmovu qətlə yetirməkdə ittiham olunan Ruslan Səfixanovun cinayət işi üzrə məhkəmə istintaqı başa çatıb. Prokuror Ruslan Səfixanovun xuliqanlıq niyyəti ilə qəsdən adam öldürməkdə təqsirli bilinərək 20 il azadlıqdan məhrum edilməsini istəyib.**

İstintaqın gedişi ilə bağlı Referans.az-a danışan Ruslan Səfixanovun vəkili Adəm Məmmədov bildirib ki, Ruslanın belə bir müddətdə azadlıqdan məhrum olunacağı ehtimal olunurdu:

“Əslində istintaqın belə yekunlaşacağı bilinirdi. Çünki bu məsələ cəmiyyətdə çox kəskin etiraz doğuran bir mövzudur. Son məhkəmədə şahidlər danışdılar, ifadə verdilər. Onlar da bildirdilər ki, bunların arasında söyüş olub, yəni mübahisə söyüş üstündə baş verib, lakin yenə də Ruslan Cinayət Məcəlləsinin 120.1 qəsdən adam öldürmə maddəsi ilə yanaşı, həm də 120.2.2-ci maddəsi, yəni xuliqanlıq niyyəti ilə adam öldürmə ilə də ittiham olundu. Bəzi insanlar bunu inkar edir, amma real şahidlər təsdiqləyir ki, Ruslana qarşı orada söyüş olub. Hətta polis belə ifadə vediyi zaman bunu bildirmişdi ki, Ruslan Turanı söyüş üstündə vurub”.

**Adəm Məmmədovun sözlərinə görə, hadisənin baş verdiyi anı Ruslan ona danışıb və Turanı nə üçün qətlə yetirdiyini tam olaraq bildirib:** “Ruslanla söhbətim zamanı mənə mübahisənin yarandığı anı danışıb. Hadisə baş verən zaman Ruslan oturmaq üçün öz yerinə yaxınlaşıb, lakin yerinə çatanda Turanın onun oturacağı yerə ayağını qoyduğunu görüb və Turandan ayağını oradan çəkməsini istəyib. Lakin Turan buna məhəl qoymayıb və Ruslana qarşı söyüş söyüb. Bundan sonra Ruslan əsəbləşib və aralarında yaranan mübahisə zamanı Turanı qətlə yetirib. Artıq istintaq müddəti də bitdi. Növbəti məhkəmə sonuncu ola bilər. Hazırkı vəziyyətdə Ruslan Cinayət Məcəlləsinin 120.2.2 (qəsdən adam öldürmə, xuliqanlıq niyyəti ilə adam öldürmə) maddəsi ilə ittiham olunur. Buna görə o, 14 ildən 20 ilə qədər azadlıqdan məhrum edilə bilər”.

**Vəkil bildirib ki, Ruslanın hətta ömürlük həbs cəzası alması belə ehtimal olunurdu, lakin bəzi cinayəti yüngülləşdirən hallar nəzərə alınıb:** “Biz Ruslanın ömürlük həbs cəzası almasını belə ehtimal edirdik, lakin bununla bitməsi belə sevindirici haldır. Amma bunu da nəzərə almalıyıq ki, Ruslan hələ yeniyetmədir və əvvəllər hər hansı bir cinayət törətməyib. Eynu zamanda bir adam öldürməyə görə çox nadir hallarda şəxsi ömürlük azadlıqdan məhrum edə bilərlər”.

Adəm Məmmədov qeyd edib ki, məhkəmənin belə bitəcəyini ehtimal etməyiblər. Onun sözlərinə görə, növbəti məhkəmə iclası, yəni iyunun 5-də keçiriləcək məhkəmə sonuncu ola bilər və yekun qərar qəbul olunması gözlənilləndir.

# Paytaxtın taksi xaosu dərdi

## Qadın sərnişinlərə əxlaqsız təkliflər edən taksi sürücüləri saxlanıldı; problemdən çıxış yolu nədir?




**Paytaxt ərazisində “Uber” və “Bolt” taksi şirkətlərinin bəzi sürücülərinin xanım sərnişinlərlə qeyri-etik formada davranmaları, əxlaqsız təklif etmələri, eləcə də taksi fəaliyyəti ilə məşğul olan zaman narkotik vasitələrin təsiri altında olmaları barədə daxil olan çoxsaylı şikayətlər əsasında polis əməkdaşları tərəfindən silsilə əməliyyatlar davam etdirilir.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən xəbərə görə, həyata keçirilən sonuncu tədbirlər nəticəsində bu günə qədər qeyd olunan əməlləri törədən həmin şirkətlərin 63 sürücüsü müəyyən edilərək saxlanılıb. Son günlərdə keçirilən tədbirlər zamanı analoji hərəkətlər törədən 6 sürücü də saxlanılaraq məsuliyyətə cəlb edilib. Əməliyyatlar zamanı saxlanılan taksi sürücülərindən bir qisminin cinayət məsuliyyətinə, digərlərinin isə inzibati məsuliyyətə cəlb olunmaları təmin edilib. Bu istiqamətdə polis əməkdaşları tərəfindən tədbirlər davam etdirilir.

Qeyd edilib ki, vətəndaşlar taksi xidmətlərindən istifadə edən zaman qarşılaşdıqları bu kimi neqativ hallarla bağlı dərhal ərazi polis orqanlarına, “102" Xidməti-Zəng Mərkəzinə və ya DİN-in sosial şəbəkələrdəki rəsmi səhifələrinə müraciət edə bilərlər.

Bu gün taksi daşıyıcılarının 90%-i müxtəlif onlayn platformalar və ya aqreqatorlar üzərindən öz fəaliyyətini həyata keçirir. Qanunvericilik isə bu cür fəaliyyət növünü tənzimləmir. Lisenziyaların yerinə gələn fərqlənmə nişanını almaq üçün istər sürücüyə, istərsə də avtomobilə münasibətdə hər hansı tələb qoyulmur. Bu bir tərəfdən bazarda rəqabəti artırır. Digər tərəfdən isə sərnişinlər bu cür daşımaları həyata keçirən sürücülərin təhqirinə məruz qalır. Lakin hazırda sürücülərin peşəkarlıq səviyyəsi, onların etik davranışı ilə bağlı tədbirlər görmək mümkün olmur. Bu sahə tənzimlənmədiyinə görə bəzən bu taksi sürücüləri müəyyən edilmiş qiymətdən daha çoxunu tələb edirlər.

Ötən həftə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində taksi şirkətlərinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə qeyd edilib ki, Azərbaycanda taksi xidməti göstərən, eyni zamanda taksi xidmətlərinin təşkili, sifarişlərin idarə olunmasını həyata keçirən əksər şirkətlərin məlumat bazası xarici ölkələrdə yerləşir və bu da “Fərdi məlumatlar haqqında” Qanuna ziddir.

**“Report” ölkədə taksi fəaliyyətində mövcud vəziyyətlə bağlı nəqliyyat sahəsi üzrə ekspert Yasin Mustafayevlə danışıb.**

**Y.Mustafayev hesab edir ki, bu sahədə keyfiyyəti və xidmət səviyyəsini yüksəltmək üçün taksi fəaliyyəti ilə bağlı qanun çərçivəsində tədbirlər görülməlidir**: “Hazırda taksi qiymətləri münasibdir. Ölkədə bu sahədə mövcud olan daşıma qiymətlərini digər ölkələrlə müqayisə etsək görərik ki, qiymətlər münasibdir. Yəni bir yerdən başqa yerə bir manat, iki manat, üç manat aşağı tariflərlə getmək olur. Amma burada keyfiyyət çox aşağıdır. Yəni istər sərnişinlərlə sürücünün davranış münasibəti, həmçinin avtomobillərin texniki vəziyyəti, onların komfortu ilə bağlı vəziyyət bir o qədər ürəkaçan deyil”.

Ekspert deyib ki, bu cür taksi xidmətləri əsasən məlumat bazası xaricdə olan beynəlxalq şirkətlər tərəfindən təşkil olunur, bu isə ölkədən valyutanın çıxmasına, ölkənin gəlirlərinin xaricə axmasına səbəb olur.

**Y.Mustafayev vurğulayıb ki, hazırda artıq taksi fəaliyyəti ilə bağlı qanun layihəsi hazırlanır və güman ki, bu, həm taksi fəaliyyətində keyfiyyətin yüksəldilməsinə xidmət edəcək, eyni zamanda qiymətin artmamasına səbəb olacaq:** “Düzdür, bu iki şərtin eyni arada olmağı bir az çətin məsələdir, çünki keyfiyyətlə kəmiyyət bir-birinə tərs mütənasibdir. Keyfiyyət yüksəldikcə kəmiyyət, yəni qiymət demək olar ki, ona mütənasib olaraq artacaq. Taksi fəaliyyəti ilə bağlı qəbul ediləcək qərar yəqin ki, cəmiyyətdə də geniş müzakirə olunacaq. Bu məsələ kifayət qədər ciddi məsələdir, daha çox insana xidmət göstərdiyindən bu qanun layihəsini elə bir şəkildə hazırlamaq lazımdır ki, qeyd etdiyimiz kimi, həm kəmiyyət, yəni qiymət siyasəti, həm də keyfiyyət siyasəti vətəndaşları qane edəcək səviyyədə olsun”.

**Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynli** də açıqlamasında mövcud problemin əsas səbəblərini açıqlayıb. Onun sözlərinə görə, bu problemlərin əsas səbəbi taksi fəaliyyətinin hüquqi tənzimində və taksi fəaliyyətinə dövlət nəzarətində çox ciddi problemlərin olmasıdır.

**Ekspert ölkədə taksi ilə sərnişindaşımada böyük bir xaosun, eyni zamanda qanundankənar vəziyyətin mövcud olduğunu söyləyib**: “Nə qədər qəribə olsa da, bu, ilk növbədə taksi sürücülərini narahat edir. Çünki onlar gün ərzində 12-14 saat işləyir, yuxusuz və yorğun olduqları üçün qəzalar törədirlər. Həmçinin demək olar ki, həmin nəqliyyat vasitələrini idarə edənlərin çoxunda sürücü hazırlığı yoxdur. Tıxacların yaranma səbəblərindən biri də məhz bu haldır”.

**Ə.Hüseynov əlavə edib ki, sərnişinlərin də bəzi məsələlərlə əlaqədar haqlı narazılıqları olur:** “Qiymətlər ucuz və əlçatan olsa da xidmətin keyfiyyəti ilə bağlı problemlər kifayət qədərdir. Hər kəsə aid olmasa da, sürücülərlə sərnişinlər arasında kobud rəftar ucbatından xoşagəlməz halların yaşanması heç kimə sirr deyil. Bu problemlərin əsas səbəbi də Azərbaycanda taksi fəaliyyətinin hüquqi tənzimində və taksi fəaliyyətinə dövlət nəzarətində çox ciddi problemlərin olmasıdır. Ona görə də birinci növbədə qanunvericiliyi təkmilləşdirmək lazımdır. Qanunvericilikdə taksi aqreqatorlarının statusu, onların taksi sürücüləri ilə qarşılıqlı münasibətləri, öhdəlikləri dəqiq müəyyən olunmalıdır. Sürücülərin hansı tələblərə cavab verməli olduğu, eyni zamanda avtomobilin necə olması ilə bağlı məsələlər də öz həllini tapmalıdır. Sürücülərin iş və istirahət müddəti də dəqiq təyin edilməlidir”.

**Ekspert vurğulayıb ki, qaydalar müəyyən edildikdən sonra onu pozan aqreqatorlar ciddi surətdə nəzarətə götürülməli və onlar barəsində sanksiyalar tətbiq olunmalıdır:** “Bir sözlə, konkret tələblərə cavab verməyənlər bu işlə məşğul ola bilmir. Bu isə özü bir limit yaradır və ölkədə həddindən artıq taksilərin fəaliyyətinin qarşısını alır. Buna dövlət nəzarəti də əslində çox qəliz məsələ deyil. Belə ki, məsələnin həlli üçün xüsusi sistem yaradılır, aqreqatorların internet portalları dövlətin nəzarət sisteminə inteqrasiya olunur. Bununla da dövlət qurumu sürücünün tələblərə uyğun olub-olmadığını asanlıqla görə bilir. Beləliklə, yaranmış bir çox problem aradan qaldırılmış olur”.

YENİ MÜSAVAT
N 91 (8227) 26 may 2023

# Ərdoğan Kılıçdaroğlunu qabaqladı

## HDP yenə "Millət" İttifaqının namizədini dəstəklədi



**Türkiyənin anket şirkətləri mayın 28-də keçiriləcək ikinci tur prezident seçkiləri ilə bağlı sorğuları davam etdirir.**

Son olaraq "Asal Araşdırma" anket şirkəti rəy sorğusu keçirib.

Məlumata görə, sorğuda 26 vilayət üzrə 2184 nəfərin rəyi öyrənilib. Sorğunun nəticəsinə görə, Cümhuriyyət Xalq Partiyasının sədri, "Millət" İttifaqının prezidentliyə namizədi Kamal Kılıçdaroğlu ilə "Cümhur" İttifaqının namizədi, hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğan arasında səs fərqi 7 faizdir.

Belə ki, respondentlərin 53,4 faizi Rəcəb Tayyib Ərdoğana, 46,6 faizi isə Kamal Kılıçdaroğluna səs verib.

Qeyd edək ki, prezident seçkilərinin mayın 14-də keçirilən ilk turunda hazırkı Prezident Rəcəb Tayyib Ərdoğan 49,52 faiz, müxalifətin lideri Kamal Kılıçdaroğlu 44,88 faiz, "ATA" ittifaqının namizədi Sinan Oğan 5,17 faiz səs toplayıb. Səsvermədə seçicilərin 88,92 faizi iştirak edib.

**"2023-cü il 14 may prezident seçkiləri və 28-ci çağırış parlament seçkiləri Türkiyədə diktatura ilə bağlı iddialara son qoydu."**

**"Report" "Anadolu"ya istinadən xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Tvitterdə etdiyi paylaşımda deyilir.**

"Biz dünyaya göstərdik ki, müəyyən xarici KİV-lərdə dərc olunan yazılarla ictimai rəyi manipulyasiya etmək cəhdləri heç bir nəticə verməyəcək. Türkiyə xalqının iradəsi sarsılmazdır!", - o bildirib.

**Ərdoğan seçkilər ərəfəsində müəyyən dairələrin Türkiyədə guya diktaturanın olması ilə bağlı yalanları şişirtməyə çalışdığını xatırladıb.** "Türkiyəyə qarşı dezinformasiya kampaniyasının arxasında öz ölkələrində seçicilərin yarısını belə seçkilərə gətirə bilməyənlər dayanırdı. Mayın 14-də keçirilən seçkilər ölkəmiz haqqında yayılan yalanları dağıtdı", - Türkiyə lideri yazıb.

Siyasətçi siyasi məqsədlərə nail olmaq üçün separatçılara və terrorçulara yaltaqlanmağın yolverilməz olduğunu vurğulayıb.

**Türkiyə liderinin sözlərinə görə, 14 may seçkiləri Türkiyə demokratiyasının gücünü göstərdi:** "Mayın 14-də keçirilən seçki 21 il ərzində Türkiyə demokratiyasının hansı səviyyəyə çatdığını göstərdi. Bütün bunlar Türkiyənin 85 milyonluq əhalisinin, siyasi baxışından asılı olmayaraq seçkiyə gələn hər kəsin ortaq uğurudur. Əminəm ki, 28 may seçkiləri sayəsində ölkəmizin nailiyyətlərini birlikdə genişləndirəcəyik".

### HDP ikinci turla bağlı qərarını açıqladı

Türkiyədə müxalif Xalqların Demokratik Partiyası (HDP) və Yaşıl Sol Partiya (YSP) prezident seçkilərinin ikinci turu ilə bağlı mövqelərini açıqlayıb.

Türkiyə mətbuatı xəbər verir ki, bu barədə keçirilən brifinqdə məlumat verilib. "Dəyişiklik arzusu bizim ən böyük ilham qaynağımızdır. Hamımız səsverməyə gedəcəyik", - deyə bildirilib.

Beləliklə, HDP və YSP-nin "Millət" İttifaqının namizədi, CHP sədri Kemal Kılıçdaroğlunu dəstəkləmək barədə qərarı qüvvədə qalıb.

### Davutoğlu Özdağın daxili işlər naziri olmasını istəmir

Türkiyədə müxalifətin "Millət" İttifaqına daxil olan Gələcək Partiyasının sədri, sabiq baş nazir və XİN başçısı Ahmet Davutoğlu dağılmış "ATA" İttifaqının üzvü olmuş, ikinci turda "Millət" İttifaqının namizədi Kamal Kılıçdaroğlunu dəstəklədiyini elan edən Zəfər Partiyasının sədri Ümit Özdağın daxili işlər naziri postunu istəməsinə münasibət bildirib.

Türkiyə mətbuatı xəbər verir ki, o, belə bir mövzunun müzakirə olunmadığını deyib.

"Nazirliklər məsələsi "Millət" İttifaqındakı 6 partiyanın liderləri arasında müzakirə edilmədən başqa heç kimlə müzakirə edilə bilməz. Belə bir sövdələşməyə Kılıçdaroğlu getməz, biz də bunu qəbul etmərik. Özdağ deyib. Bəzən siyasi liderlər könlündən keçənləri deyər. Onunla bir çox fikirlərimiz üst-üstə düşmür. Lakin bu, müzakirələr aparmağımıza əngəl deyil. Biz Kılıçdaroğlu ilə görüşüb Özdağla imzalanan protokolu yenidən gözdən keçirdik. Fərqli düşündüyümüz şeylər var".

**Xatırladaq ki, Özdağ belə bir tvit atmışdı:** "Söz verirəm ki, suriyalıları daxili işlər naziri olaraq ölkədən yollayacağam. Bu gün saat 11:00-u gözləyin".

Daha sonra CHP Özdağa nazir postu verilməsi barədə razılıq əldə olunması barədə məlumatları təkzib edib. Özdağ da məsələyə belə aydınlıq gətirib: "Nazirlik məsələsi hökumət qurulmadan danışılacaq bir məsələ deyil. Amma deyim ki, mən bu postu istəyərəm".

### Daha bir qrup deputat Türkiyəyə gedir

Milli Məclisin bir qrup deputatı Türkiyə Respublikasında keçiriləcək prezident seçkilərinin ikinci turunu müşahidə etmək üçün mayın 26-da bu ölkənin paytaxtı Ankara şəhərinə səfər edəcək.

Bu barədə Milli Məclisdən məlumat verilib. Səfər çərçivəsində Milli Məclisin komitə sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov və qrupun üzvü, deputat Anar Məmmədov TÜRK PA, deputat, ATƏT PA-da Azərbaycan nümayəndə heyəti rəhbəri Azay Quliyev isə ATƏT PA xətti ilə Türkiyə Respublikasında mayın 28-də keçiriləcək prezident seçkilərinin ikinci turuna hazırlıqla tanış olacaq və seçki günü məntəqələrdə prosesin gedişini, vətəndaşların fəallığını izləyəcəklər.

### Sinan Oğandan tənqidlərə cavab

Türkiyədə "ATA" İttifaqının prezidentliyə namizədi olmuş Sinan Oğan ikinci tur seçkilərində AKP lideri, hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğanı dəstəklədiyinə görə onu tənqid edənlərə cavab verib.

Modern.az xəbər verir ki, Azərbaycan əsilli siyasətçi tənqidlərə cavab olaraq instaqram hesabında paylaşım edib. "Heç kimə kin saxlamıram, amma kimin nə etdiyini də unutmuram. Bəzən çox şeylər qarşısında səssiz qalıram. Amma necə deyərlər, hər şeyin öz vaxtı var. Mən doğru vaxtı gözləyirəm. Heç bir işdən xəbərsiz olduğumu düşünməyin. Sadəcə, bunlarla maraqlanmaq istəmirəm", - deyə S.Oğan vurğulayıb.

Qeyd edək ki, Sinan Oğanın seçkilərin ikinci turunda AKP lideri, hazırkı prezident Rəcəb Tayyib Ərdoğanı dəstəkləməsi siyasi müstəvidə geniş müzakirələrə səbəb olub. Ərdoğan tərəfdarları Oğanın qərarını alqışla, bəzi müxalifət nümayəndələri isə təhqirlə qarşılayıb.

### Kılıçdaroğlu danışdı: "İkinci səfərim Bakıya olacaq"

Türkiyədə prezidentliyə "Millət" İttifaqının vahid namizədi, Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kemal Kılıçdaroğlu "Babala TV" internet televiziyasında Oğuzhan Uğurun "Mevzular Açık Mikrofon" proqramının qonağı olub.

Modern.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, aparıcı O.Uğur verilişlə bağlı təəssüratlarını bölüşüb.

O qeyd edib ki, veriliş izlənilmə rekordu qırıb. Belə ki, yutubda ilk 1 saat ərzində verilişə 4 milyondan çox istifadəçi baxıb.

"Bu vaxta qədər 1 saat ərzində 1.5 milyon baxış sayı ilə rekord Məmləkət Partiyasının sədri cənab Muharrem İncəyə məxsus idi. Dünən Kılıçdaroğlunun qatıldığı proqram 1 saatda 4 milyona çatdı. İndi 20 milyona yaxındır, amma yutub sayımı ilə 11 milyona yaxın. Bu, böyük rekord idi. Kılıçdaroğlu çox sakit idi. Digər qonaqlar təbii ki, çox həyəcanlı idilər. Gözlərində həyəcan görünürdü, amma Kamal bəydə əsəb pozacaq qədər sakitlik vardı.

Zalda temperament qalxıb-düşəndə bu, qonaqların bədən dilinə təsir edir, amma Kılıçdaroğlu inanılmaz dərəcədə stabil idi. Möhtəşəm idi. Klıçdaroğlu sualları sakitcə cavablandırdı. Məsələn, bir çox siyasi partiya nümayəndələri bunu edə bilməmişdi. Dedi ki, mənə çoxlu sual verəcəkləri bəllidir. İnternetdə onun haqqında çoxlu suallar dolaşır. Bunun fərqində idi, komandasını təbrik edirəm, yaxşı oxuyublar. Kamal bəy gündəmdəki mövzulardan xəbərdar idi".

Qeyd edək ki, Kılıçdaroğlu veriliş zamanı Azərbaycanla bağlı verilən sualı da cavablandırıb.

Belə ki, prezidentliyə namizəd bu dəfə Azərbaycanı "görüb". Azərbaycanı "İpək yolu" xəritəsindən silən, adını belə çəkməyən Kılıçdaroğlu bu dəfə deyib ki, prezident seçiləcəyi təqdirdə ikinci səfərini Azərbaycana edəcək (ilk səfəri Şimali Kipr Türk Respublikasına).

❑ **Afaq MİRAYIQ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 91 (8227) 26 may 2023

# Əksər şadlıq evləri müflis durumda- menyu qiymətləri qəfil artdı

## Eyyub Kərimli: "Şadlıq saraylarının bəziləri sıradan çıxacaq, iflasa uğrayacaqlar"

**Postpandemiya dövrünün təsiri ilə Azərbaycanın toy bazarında restoranlara olan tələbatın azaldığı ilə bağlı fikirlər dolaşır. Məsələ ilə bağlı "Trend"in əməkdaşı bir neçə restorandan hazırda vəziyyətin necə olduğunu öyrənib. Restoranlardan verilən məlumata görə, yayılan söhbətlər həqiqəti əks etdirir. Belə ki, toyların sayı kəskin azalıb. Biz düşünürdük ki, pandemiyaya görə tətbiq edilən qadağalardan sonra toyların sayında artım olar. Lakin belə olmadı. İnsanlar artıq əvvəlki kimi dəbdəbəli toy keçirməyə maraq göstərmir. Pandemiyanın insanların toy adətlərinə çox təsiri olub.**




Əvvəllər ayda 25-30 toy olurdusa, hazırda 10-15 toy olur. Toya çağırılan qonaqların sayında da azalma var. Əvvəllər 400-500 nəfərlik toylar indi 200 nəfərlə keçirilir. Hazırda 100-150 nəfərlik toy edənlər artıb. Qonaq sayı az olan toylar restoranlar üçün sərfəli deyil. Bundan başqa hazırda qız-oğlan toyunu bir edir. Bu da toy sayına təsir edən səbəblərdən biridir. Son vaxtlar restoranlarda menyuların qiymətində 20%-ə qədər bahalaşma var. Bu da toy sahibinə çoxlu qonaq çağırmağa əngəl olur. Biz ilk vaxt fikirləşirdik Ramazan və Məhərrəmlik ayında toy olmadığından vəziyyət belədir. Lakin belə olmadı. Artıq toyların ən çox keçirilən aylarında da toyların sayında azalma var. Toy bazarında vəziyyət durğundur.

**İqtisadçı ekspert Xalid Kərimli bildirb ki, vəziyyət belə davam edərsə, bir çox restoranların bağlanması və təyinatının dəyişməsi realdır:** "Restoranlarda gəlirlilik aşağı düşüb. Bundan dolayı ölkədə fəaliyyət göstərən restoranların icarə haqlarının aşağı düşməsi gözlənilir. Ölkəmizdə bir dönəm var idi ki, pullu adamlar restoran sahibi olmağa investisiya kimi baxırdılar. Çünki mənfəətli sahə idi və rahat pul qazanırdılar. Pandemiyadan sonra bu sahə artıq çox da gəlirli sahə sayılmır. Əsas da qiymət artımı, pandemiya, müharibə və dünyada baş verən proseslərin fonunda insanların alıcılıq qabiliyyəti aşağı düşüb. Bu da toy biznesinə və toya gələn qonaqların maliyyə imkanlarına təsir edib. Şadlıq saraylarının qiymətlərinin bahalaşması onların xərcinin artması deməkdir. Rəqabətdə uduzanlar restoranın təyinatın dəyişməlidirlər, ya da bağlamalıdırlar. Şadlıq sarayları və restoranları qarşıda daha çətin günlər gözləyir", - deyə ekspert qeyd edib.

Bu xəbərlərin fonunda Bakıda şadlıq saraylarında menyularda qiymət artımı müşahidə edilir. İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) verilən məlumata görə, 2023-cü ilin aprel ayında şadlıq saraylarında sifarişlərin sayı 72.8 faiz azalıb. Bunun əsas səbəbi aprel ayının ilk iki onluğunun Ramazan ayına təsadüf etməsi olub. Bununla belə, aprel ayının son həftəsində şadlıq saraylarında canlanma müşahidə edilib. Bununla yanaşı, şadlıq saraylarında aprel ayında qiymətlər 10.2 faiz artıb.

Xüsusən 40 manatadək olan menyularda qiyməti daha çox artıb: 14.5 faiz. Qiyməti 40-80 faiz olan menyuların qiyməti 8.7 faiz yüksəlib. Dəyəri 100 manatdan çox olan menyuların qiymətində də 7.4 faiz artım qeydə alınıb.

**"Xəmsə" restoranlar şəbəkəsinin rəhbəri Mürvət Həsənli "Yeni Müsavat"a dedi ki, son dövrlər toy sifarişlərində azalma var:** "Kəskin şəkildə bahalaşma olsa da, şadlıq evlərində qiymətləri qaldırmaq olmur. İnsanlar artıq müraciət etmirlər. Toylar azalıb, əvvəlki kimi deyil. Ərzaq məhsullarının qiymətində artım var. Yəni biz 2015-ci illə 2020-ci ili müqayisə edəndə görürük ki, qiymətlərdə böyük artım var. Pandemiyadan sonra toy bazarı bir az fəallaşdı, amma indi zəifləyib. Artıq payız aylarına daha çox önəm verirlər".

**Sahibkar onu da əlavə etdi ki, şadlıq saraylarının bağlanması fikri ilə razılaşmır:** "Düşünmürəm ki, müflis olacaqlar. Müəyyən bazar həmişə olacaq. Bizdə mentalitet məsələsinə görə hər kəs toy etmək istəyir, ona görə olacaq. Amma müəyyən azalmalar var. Toya dəvət olunanların sayında azalmalar ola bilər. Əvvəllər 500 nəfərlik toy edənlər ay ərzində 20-30 nəfər idisə, indi bu rəqəm 5-10 nəfərə düşüb".

**İqtisadçı ekspert Eyyub Kərimli mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, yaxın gələcəkdə şadlıq saraylarının müflis olması qaçılmazdır**: "Toy mövsümünün ən aktiv dövrü Ramazan ayına düşdü. Həm mart ayı, həm də aprel ayı təsir göstərdi. Hazırda may ayıdır, bu ayda bizdə toy edilmir. Məsələnin iqtisadi tərəfinə gəlincə, ölkədə ötən ildən inflyasiya gedir, bu 40 faiz özünü göstərdi. Hazırda da davam edir, demək olar ki, inflyasiya 20 faizin üzərindədir. Qiymətlərin artması sözsüz ki, restoranlarda menyuların bahalaşmasına səbəb olub. İkinci məsələ, şadlıq evlərinin ən böyük problemi onların standart menyu təklif etməsi ilə bağlıdır. Müştərinin tələbinə uyğun yox, özlərinin təqdim etdiyi standart menyu var ki, orada da bəzən müştəri çox dəyişiklik edə bilmir. Bu da öz növbəsində bahalaşmaya səbəb olur. Çünki şadlıq evləri əvvəlki dövrə görə işləri yaxşı gedirdi, heç nə onlara təsir etmirdi. Tələb çox olduğundan, rəqabət az olduğundan daha çox özlərinin diktə etdiyi menyular var idi. Hazırda bu da məsələyə öz təsirini göstərir. Ona görə də insanlar daha az toy etməyə meyillidirlər. Böyük toyların azalması, həm də pandemiya insanlara məsələyə fərqli yanaşmağı öyrətdi. Artıq dəbdəbəli toylar gündəmdə deyil, kiçik kompakt toylar etmək istəyirlər. Digər ölkələrin də təcrübəsinə meyllənirlər. Gənclərimiz də gec ailə qururlar, daha çox karyera ilə məşğul olmaq istəyirlər. Həmçinin burada demoqrafik məsələ də var. O vaxt bizim müharibədə şəhidlərimizin olması kişilərin sayında kəskin azalmaya səbəb olmuşdu. İnandırım ki, bu təsir hələ 25 ildən sonra , 2045-də özünü göstərəcək. Çünki 44 günlük müharibədə də kişilərimiz şəhid oldu. Yəni bunlar kompleks məsələlərdir. Vəziyyətdən çıxış nədir? Fikrimcə, şadlıq sarayları özündən razılığı kənara qoyub, menyuları tələbə uyğun iş qurmalıdırlar. İnsanlara standart menyu yox, seçim verməlidirlər. Kim hansı menyunu vermək istəyir, restoranlar da o menyu ilə razılaşmalıdırlar. Onda toy etmək insanlar üçün daha sərfəli olar və onlar standart menyudan çıxıb, sifarişli menyulara üstünlük verəcəklər. Şadlıq sarayları da daha çox müştəri əldə edə bilərlər. Çünki hər dövrün öz tələbləri var və bunlar yerinə yetirilməlidir. Bu gün rəqabət də çoxdur, şadlıq saraylarının sayı çoxalıb. Bu amil də bir tərəfdən öz təsirini göstərir".

**Ekspert əlavə edib ki, yaxın gələcəkdə şadlıq saraylarının bəziləri sıradan çıxacaq, iflasa uğrayacaq. Sahibkarların kifayət qədər vəsaiti var, yəqin ki, obyektlərinin fəaliyyət istiqamətini dəyişəcəklər:** "İstirahət mərkəzinə, hotelə, konfrans zalı kimi istifadə edə bilərlər. Ya da söküb yerində bina tikə bilərlər. Yəqin ki, gələcəkdə şadlıq saraylarının sayı azalacaq. Çünki bu sahədə rəqabət çoxalıb və hər kəs bu sahə ilə məşğul olmaq həvəsində olmayacaq".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# "ƏDV geri al" layihəsi çərçivəsində vətəndaşlara 425 milyon manat qaytarılıb



**Azərbaycanda "ƏDV geri al" layihəsinin tətbiq edildiyi vaxtdan bu il may ayına qədər müvafiq portalda qeydiyyatdan keçmiş istehlakçılara ümumilikdə 425,1 milyon manatdan çox vəsait geri qaytarılıb.**

"Report" bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə (DVX) istinadən xəbər verir.

Məlumata görə, təkcə bu ilin yanvar-aprel ayında isə 49 milyon manata yaxın ƏDV məbləği geri qaytarılıb.

"ƏDV geri al" nağdsız ödəmələrin genişlənməsinə mühüm təkan verən layihələrdən biridir. Alınmış mallara və əldə edilmiş xidmətlərə görə ödəniş nağdsız qaydada olduqda ödənilmiş ƏDV-nin 17,5 %-i, nağd qaydada isə 5 %-i istehlakçılara geri qaytarılır. Vətəndaşları pərakəndə ticarət, ictimai iaşə və tibb xidmətləri sahəsində nağdsız ödəmələrə cəlb etmək məqsədi daşıyan stimullaşdırıcı "ƏDV geri al" layihəsinin reallaşdırılması sözügedən sektorlarda nağdsız ödəmələrin xüsusi çəkisinin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olub.

Dövlət Vergi Xidməti tərəfindən ölkədə yeni nəsil nəzarət-kassa aparatlarının (NKA) tətbiqi istiqamətində də işlər davam etdirilir. Hazırda ölkə üzrə tətbiq olunan onlayn NKA-ların sayı 88 mindən çoxdur. 2023-cü ilin 4 ayı ərzində yeni nəsil kassalar vasitəsilə qeydə alınan dövriyyə 6,7 milyard manat olub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 20,1 % çoxdur.

**Elan**

**Sabunçu rayonu ünvanında qeydiyyatda olan Həsənov Pənah İsmayıl oğluna məxsus Suraxanı rayonu, Hövsan qəsəbəsi, "Hövsan Yaşayış Kompleksi" tərəfindən bina 3, giriş 73, mərtəbə 6, mənzil 3 ünvanına verilmiş müqavilə sənədi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 91 (8227) 26 may 2023

**2022-ci ildə Azərbaycanın dövlət büdcəsinə daxil olan və oradan xərclənən vəsaitlərin gəlir və xərc maddələri üzrə həcmi açıqlanıb. Milli Məclisə daxil olan sənəddən aydın olur ki, ötən il büdcənin gəlirləri 30 milyard 679,6 milyon manat, xərclər 32 milyard 64,5 milyon manat təşkil edib.**

# Ötənilki büdcənin detalları açıqlandı: rəqəmlər nə deyir?

## Vergi və gömrükdən büdcəyə köçürmələrin artmasında inflyasiya ciddi rol oynayıb



Büdcə gəlirlərinin 50,7 faizi Dövlət Vergi Xidmətinin xətti ilə, 18,4 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 25,8 faizi Dövlət Neft Fondundan köçürmənin, 5,1 faizi digər gəlirlər üzrə daxilolmaların payına düşüb.

Hesablama Palatasının 2022-ci ildə büdcənin icrasına dair rəyinə görə, hesabat dövründə vergitutma bazasını genişləndirən inflyasiya və iqtisadi artım sahibkarlıq subyektlərinin dövlət büdcəsinə hesablanmış real öhdəliklərinin əvvəlki illə müqayisədə əhəmiyyətli dərəcədə artması ilə nəticələnib. Bu isə Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə təmin edilməli gəlirlər üzrə proqnozun artıqlaması ilə icra edilməsini şərtləndirib.

Hesabat ilində həmçinin əvvəlki illə müqayisədə idxalın həcminin, o cümlədən idxal rüsumuna cəlb olunan idxalın artması və ƏDV üzrə azadolmaların idxalda xüsusi çəkisinin azalması, eləcə də depozit və tapşırıqlar hesabı üzrə qalıq məbləğlərinin (rəsmiləşdirilməsi tam başa çatdırılmış mallar üzrə) dövlət büdcəsinə köçürülməsi şəraitində Dövlət Gömrük Komitəsi xətti ilə təmin edilməli gəlirlər üzrə proqnoz artıqlaması ilə icra edilib.

Palata auditorlarının apardığı təhlillərlə müəyyən edilib ki, hesabat ilində əsas xarici ticarət tərəfdaşlarından "inflyasiya idxalı"nın artması şəraitində Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilən gömrük ödənişlərinin təxminən 17 faizə qədəri inflyasiyanın hesabına formalaşıb.

Ötən il ödəyicilərin vergi borclarının məbləği 2021-ci illə müqayisədə artıb. Bu zaman dövlət mülkiyyətində olan vergi ödəyicilərinin borcları ümumilikdə 6,7 milyon manat azalsa da, Dövlət Neft Şirkətinin borcu 2021-ci ilə nisbətən 21,6 milyon manat və ya 34,8 faiz artmaqla (76,9 milyon manatı və ya 92 faizi "Azneft" İstehsalat Birliyi üzrə) 83,6 milyon manata çatıb. Xüsusi mülkiyyətdə olan vergi ödəyicilərindən hüquqi şəxslərin borcları 122,2 milyon manat və ya 10,2 faiz artaraq 1 milyard 324,7 milyon manat, sahibkarlıqla məşğul olan fiziki şəxslərin borcları isə 375,8 milyon manat və ya 2,6 dəfə artaraq 606,9 milyon manat təşkil edib. 2021-ci ildə olduğu kimi, 2022-ci ildə də dövlət büdcəsinə olan borcların artması əsasən qeyri-neft və qeyri-dövlət sektorunda fəaliyyət göstərən xüsusi mülkiyyət mənsubiyyətinə aid edilən vergi ödəyiciləri üzrə olub.

2022-ci ildə dövlət mülkiyyətində olan vergi ödəyicilərinin fiziki şəxslərin gəlir vergisi (əmək haqqından ödənilən vergi- red.) üzrə daxilolmalarının real hesablamaya nisbətən icrası 93,9 faiz olub. Lakin "Azərbaycan Hava Yolları" QSC üzrə icra cəmi 10,8 faiz təşkil edib. Ən yüksək icra faizi 109,8 faiz olmaqla "Bakı Metropoliteni" QSC-də qeydə alınıb.

Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi üzrə müəyyən edilmiş 5 milyard 290 milyon manat proqnoz 3 milyard 232,5 milyon manat və ya 61,1 faiz çox olmaqla 8 milyard 522,5 milyon manat məbləğində icra edilib. Bu, 2021-ci illə illə müqayisədə 5 milyard 564,1 milyon manat və ya 2,9 dəfə çoxdur.

2022-ci ilin dövlət büdcəsində səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər üzrə daxilolmalar 106,5 milyon manat proqnoza qarşı 130,7 milyon manat icra edilib. Bunun 120 milyon 458,8 min manatını Beynəlxalq Bank ödəyib. "Azər-Türk Bank" ASC 2021-ci maliyyə ilini 554,0 min manat mənfəətlə başa vurmasına baxmayaraq, həmin məbləğ Bankın kapital mövqeyinin və maliyyə dayanıqlılığının qorunması adı ilə divident kimi səhmdarlara ödənilməyib və bankın kapital hesablarına aid edilib. "Aqrarkredit" QSC BoKT isə 200 min manat proqnoza qarşı 198 min manat ödəyib.

**Palata qeyd edir ki, dövlət büdcəsinin icrası prosesində aparılmış dəyişikliklər 2022-ci ildə də dövlət büdcəsinin təsdiq edilmiş məbləğlərinin (xərclərin funksional təsnifatı üzrə) dəyişdirilməsinə və nəticədə icra vəziyyətinə təsir edib:** "Yerdəyişmələrə dair təqdim edilmiş məlumatların təhlili göstərir ki, funksional təsnifatın bütün bölmələri üzrə dəyişikliklər həyata keçirilib, bəzi bölmələr üzrə isə dəyişiklik məbləğinin təsdiq edilmiş dövlət büdcəsinin göstəricilərinə nisbəti daha əhəmiyyətli olub. Hesabat ilində xərclərin təyinatı üzrə dəyişiklik edilmiş məbləğlərin funksional təsnifatın bölmələri üzrə təsdiq edilmiş məbləğlərə nisbəti azalmalar üzrə 1,2 -24,2 faiz, artımlar üzrə isə 0,01-92,4 faiz aralığında dəyişmişdir. İl ərzində edilmiş dəyişikliklərdən sonra funksional təsnifatın 11 bölməsi üzrə təsdiq edilmiş xərclərin məbləği 1 milyard 338,7 milyon manat azaldılıb, 1 bölmə üzrə isə eyni məbləğdə artırılıb.

Həyata keçirilmiş dəyişikliklərin təhlili göstərir ki, hesabat ilində icra prosesində xərclərdə aparılmış yerdəyişmələrdə "Sair xərclər" və "İstehlakyönlü müxtəlif xidmətlər" xərc maddələri üzrə yerdəyişmələrin payı nəzərəçarpacaq olub. 2022-ci ilin dövlət büdcəsində "Sair xərclər" xərc maddəsi üzrə 1 milyard 705,8 milyon manat artma, 630,9 milyon manat isə azalma olub, "İstehlakyönlü müxtəlif xidmətlər" xərc maddəsi üzrə isə 246,1 milyon manat artma, 991,7 milyon manat azalma olub".

Maliyyə naziri Samir Şərifovun verdiyi məlumata görə, ötən il işğaldan azad olunan ərazilərin bərpasına büdcədən 2 milyard 670 milyon manat ayrılması nəzərdə tutulsa da, yekunda müxtəlif xərc istiqamətləri üzrə edilən "qənaət" hesabına 4 milyard 315 milyon manat xərclənib. Bu zaman ən çox "qənaət" səhiyyə, kənd təsərrüfatı, mədəniyyət və sair üzrə olub.

Dövlət büdcəsinin icrası barədə təqdim edilmiş məlumatlardan aydın olur ki, dövlət əsaslı vəsait qoyuluşu maddəsi üzrə illik məbləğin 47,9 faizi sonuncu rübdə xərclənib. Belə ki, il ərzində bu xərc maddəsi üzrə 3 milyard 280,4 milyon manat xərcləndiyi halda, 4-cü rüb üzrə bu məbləğ 1 milyard 571,1 milyon manat, o cümlədən dekabr ayı üzrə 918,4 milyon manat, yəni illik icranın 28 faizini təşkil edib. Bu zaman layihələr üzrə xarici kreditlər istisna olmaqla dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) 49,5 faizi, xarici kreditor qurumlarla birgə maliyyələşmə əsasında həyata keçirilən layihələr üzrə kreditlərin 28,7 faizi 4-cü rübdə istifadə edilib.

Ötən il "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxsə ayrılması nəzərdə tutulan 163 milyon manat ayrılmayıb. Əvəzində Sahibkarlığın İnkişafı Fonduna nəzərdə tutulmadığı halda 120 milyon manat, Azərbaycan İnvestisiya Şirkətinə isə 43 milyon manat yönəldilib.

Dövlət əsaslı vəsait qoyuluşu xərc maddəsi üzrə artırılan vəsait əsasən infrastruktur layihələrinin icrasına yönəldilib. Hesabat ilində xarici kreditor qurumlarla birgə maliyyələşmə əsasında həyata keçirilən layihələr də nəzərə alınmaqla infrastruktur layihələrinin icrasına 881,0 milyon manat çox, sosial təyinatlı layihələrin icrasına 184,2 milyon manat az vəsait xərclənib. Nəticədə infrastruktur layihələrinin icrasına istifadə olunmuş vəsaitin dövlət əsaslı vəsait qoyuluşu xərclərində xüsusi çəkisi 76,2 faiz təşkil edib.

2022-ci ildə həm cari, həm də əsaslı xərclərin icra məbləğləri proqnozla müqayisədə əhəmiyyətli fərqlənib. Belə ki, yenidən baxılan məbləğlə müqayisədə cari xərclərin 2 milyard 507,5 milyon manat az icra olunması fonunda icra edilmiş əsaslı xərclər proqnozu 2 milyard 268,3 milyon manat üstələyib.

**Hesabat ilində büdcədən 95 istiqamətdə ümumilikdə 1 milyard 401,7 milyon manat subsidiya ayrılıb:** "Təhlillər göstərir ki, bəzi hallarda yönəldilmiş subsidiya məbləğləri istifadəsiz saxlanılır. Məsələn, dövlət büdcəsinin icrası barədə məlumatlarda "Hüquqi şəxslərə digər subsidiyalar" paraqrafından "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə fəaliyyətinin təmin edilməsi üçün 89,5 milyon manat məbləğində vəsait ayrıldığı və tam məbləğdə icra olunduğu göstərilib. Qurumdan təqdim edilmiş məlumatlara əsasən isə hesabat ilində faktiki olaraq 63,1 milyon manat məbləğində vəsait xərclənib və 2022-ci ilin sonuna 26,4 milyon manat Səhmdar Cəmiyyətin bank hesabında qalıb. Ümumiyyətlə, Hesablama Palatası tərəfindən bir çox dövlət müəssisələrində aparılan kənar dövlət maliyyə nəzarəti tədbirləri dövlət büdcəsindən ayrılan subsidiyaların bir çox hallarda qənaətlə xərclənmədiyini, bu vəsaitin cari məqsədlər üçün ayrılmalı olduğu halda, bəzi hallarda birbaşa və yaxud dolayı yolla investisiya fəaliyyəti ilə əlaqədar xərc istiqamətlərinə (əsaslı təmir, tikinti və s.), kreditlərin ödənilməsinə və s. yönəldildiyini göstərir. Beləliklə, həm analitik təhlillər, həm də kənar dövlət maliyyə nəzarəti tədbirləri subsidiyaların verilməsi mexanizmini tənzimləyən aydın meyarların və konkret qaydaların olmasının vacibliyini ön plana çəkir".

2022-ci ildə büdcə təşkilatlarının iş və xidmətlərin göstərilməsindən, məhsul satışından və digər fəaliyyətindən əldə etdikləri gəlirlərdən formalaşan büdcədənkənar vəsaitlər üzrə xərcləri (büdcədənkənar xərclər) təsdiq edilmiş smetanın 90,4 faizini təşkil edərək 753,7 milyon manat məbləğində icra edilib ki, bu da 2021-ci illə müqayisədə 147,7 milyon manat və yaxud 24,4 faiz çoxdur. Bu zaman əvvəlki illərdən fərqli olaraq, 2022-ci ildə icra edilmiş büdcədənkənar xərclərdə ən yüksək xüsusi çəkiyə 40,6 faizlə (306.2 milyon manat) "Qeyri-maliyyə aktivləri" bölməsi sahib olub. Ötən ilə qədər büdcədənkənar xərclərin ən böyük hissəsi əməyin ödənişi xərclərinə yönəldilirdi. Belə ki, 2021-ci ildə əməyin ödənişi xərcləri büdcədənkənar xərclərin 58,4 faizini təşkil edirdisə, 2022-ci ildə bu göstərici (305,2 milyon manat) 40,5 faizə bərabər olub.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 91 (8227) 26 may 2023



## Qadın zənginə cavab verilmədiyi üçün özünü doğradı

**Bakıda qadın intihara cəhd edib. Hadisə Binəqədi rayonu İ.Dadaşov küçəsində baş verib. 63 yaşlı Əminə Novruz qızı Novruzova yaşadığı evin hamam otağında özünə bıçaqla xəsarət yetirib. Onun uzun müddətdir ki, psixi xəstəlikdən əziyyət çəkdiyi bildirilir. Məlumata görə, Ə.Novruzova rəfiqəsi onun zənginə cavab vermədiyi üçün özünə xəsarət yetirib.**

Faktla bağlı araşdırma aparılır.

## 800 milyon insan bel ağrısından əziyyət çəkəcək

**Sidney Universiteti, Vaşinqton Universiteti Tibb fakültəsi və digər təşkilatların mütəxəssisləri 2050-ci ilə qədər 800 milyon insanın bel ağrısından əziyyət çəkəcəyi qənaətinə gəliblər.**

Araşdırmanın nəticələri tibb jurnalı "The Lancet Rheumatology"də dərc edilib. Müəlliflər 1990-cı ildən 2020-ci ilə qədər 204 ölkədən tədqiqat iştirakçılarının daxil olduğu məlumatların təhlilini aparıblar. Bu, zamanla dəyişən bel ağrısı şikayətləri olan xəstələrin dinamik xəritəsini yaratmağa imkan verib. Alimlər müəyyən ediblər ki, 2017-ci ildən bəri belə halların sayı yarım milyard insanı ötüb. 2020-ci ildə bel ağrısından əziyyət çəkən təxminən 619 milyon xəstə olub. Çox vaxt qadınlar bel ağrısından əziyyət çəkiblər.

Əldə edilən məlumatlara əsasən, 2050-ci ilə qədər bel ağrısı şikayətlərinin sayı demək olar ki, 50 faiz artacaq. Ən çox yoluxma Asiya və Afrikada qeydə alınacaq. Dünyada ümumilikdə 843 milyon insan bu xəstəlikdən əziyyət çəkəcək - əsasən əhalinin sayının artması və qocalması səbəbindən. Bu, gələcəkdə bel ağrısının yayılmasının modelləşdirilməsi üçün istifadə edilən ilk araşdırmadır.

# Hitlerin doğulduğu ev insan haqlarının "carçısı" olacaq



**Avstriyada nasist lideri Adolf Hitlerin 1889-cu ildə doğulduğu evdə polislərə insan haqları mövzusunda təlim keçiləcək.**

Avstriyanın Almaniya ilə sərhədində yerləşən Braunau Am İnndəki ev polis əməkdaşlarına təlimlər keçirilməsi üçün istifadə olunacaq. Hökumətin uzun çəkişmələrdən sonra keçən il aldığı binada təmir işlərinin payızda başlayacağı gözlənilir.

Hökumətin evlə bağlı planları isə ölkədə müzakirə obyektinə çevrilib. Bəzi avstriyalılar evin neonasistlərin mərkəzinə çevrilməməsi üçün sökülməsini istəyir, digərləri isə evin sökülməsinin Avstriyanın keçmişinin inkar edilməsi anlamına gələcəyini iddia edir. Digər qrup da evin xeyriyyə məqsədləri üçün istifadə olunmasını təklif edir.



## Saxalində meymun körpə uşağa hücum etdi

**Rusiyanın Saxalin vilayətində meymun körpə uşağa hücum edib. Hadisə nənəsi bir yaşlı qızcığazı gəzdirdiyi zaman baş verib. Yaşlı qadının sözlərinə görə, o, nəvəsini uşaq arabasında gəzdirirmiş. Qucağında meymun olan bir kişi onların yanından keçib. Bu zaman meymun sahibinin əlindən çıxıb və uşaq arabasının üzərinə atılıb, körpənin üzündən yapışıb.**

"Kişi meymunu dartıb qopardı və "o, xəstə deyil", - deyə qışqıraraq qaçdı. Ardınca qaçdım, fikirləşdim ki, yetişərəm, amma o, həyətlərdə gözdən itdi. Ona necə çatım, boyum 150 sm, onun boyu isə 180 sm olana bənzəyirdi. Qızıma zəng etdim, dərhal gəldi", - deyə uşağın nənəsi bildirib.

Ailə yaxınlıqdakı xəstəxanaya müraciət edib, uşağın yaraları təmizlənib, tibbi yardım göstərilib və ambulator müalicəyə buraxılıb. Daxili İşlər Nazirliyinin regional idarəsi heyvanın uşağa hücumu faktını təsdiqləyib, meymunun sahibi axtarılır.

## Qayanada məktəbdə 19 uşağın diri-diri yanmasının baiskarı tapıldı



**Qayanada internat məktəbində 19 uşağın ölümü ilə nəticələnən yanğını şagirdlərdən biri törədib, səbəbi telefonunun əlindən alınması olub. Bu barədə France Presse xəbər agentliyi Qayana hökumətindəki mənbələrə istinadən məlumat yayıb. Agentlik iddia edir ki, polisin rəsmi hesabatında qəsdən yandırılma qeyd olunub. Bildirilir ki, məktəb şagirdi mobil telefonu müsadirə edildiyi üçün bunu edib.**

Adı açıqlanmayan məmurun sözlərinə görə, yeniyetmə qız artıq yanğın törətdiyini etiraf edib. O, hazırda xəstəxanada polisin mühafizəsi altındadır. Bundan əvvəl bildirilib ki, Madiya şəhərində məktəbdə baş verən yanğını ttps://oxu.az/world/732870 araşdıran yanğınsöndürənlər birmərtəbəli taxta binanın tamamilə yanması nəticəsində qəsdən yanğın törədildiyini elan ediblər. Faciə ilə əlaqədar Qayana Prezidenti İrfaan Əli ölkədə üçgünlük milli matəm elan edib.

Ölənlərin şəxsiyyətini müəyyən etmək üçün DNT testinin aparıldığı bildirilir. Bununla əlaqədar olaraq, Qayana hökuməti artıq ölkənin beynəlxalq tərəfdaşlarından lazımi dəstək istəyib.

## Bunları bilirsinizmi?

* Küçə boyu kişi xanımdan solda getməlidir. Sağda yalnız hərbi qulluqçular gedə bilərlər, hansı ki, onlar da hərbi salamlaşmanı verməyə hazır olmalıdır.
* Əgər qadın büdrədisə və ya sürüşdüsə, onu dirsəyindən tutmaq lazımdır. Amma adi vaxtda kişinin qadının əlindən tutmağına qadın özü qərar verməlidir
* Qadın qarşısında kişinin siqaret çəkməsi düzgün deyil, o, yalnız bunu qadından icazə qaldıqdan sonra edə bilər.
* Girişdə və çıxışda kavaler xanımdan əvvəl qapını açır amma özü arxada gedir.
* Nərdivandan qalxarkən kişi öz yoldaşından 1-2 pilləkan arxada və ya nərdivandan enərkən isə 1-2 pilləkan qabaqda getməklə öz yoldaşını "sığortalamalıdır"
* Liftə girdikdə birinici kişi girməli və çıxışda isə xanım birinici çıxmalıdır .
* Maşından düşərkən birinici kişi çıxır, o nəqliyyat hərəkətini nəzərdən keçirir və maşının qapısını sərnişinlər tərəfə açmaqla qadınlara çıxmağa kömək edir. Eyni zamanda kişi özü maşını idarə edirsə və ya qabaq oturacaqda oturursa, o, qapını açıb qadını dirsəyindən tumaqla ona düşməsinə kömək edir. Əgər kişi və qadın hər ikisi də taksi sərnişinidirlərsə, onlar arxa oturacaqda getməlidirlər. Salondan düşərkən xanım birinci düşür, kişi isə ondan sonra.
* Müəyyən bir yerdə yerləşəndə, kişi qadına üst geyimini çıxartmağa kömək etməli, otaqdan çıxdıqda isə ona geyimini vermək lazımdır
* İctimai nəqliyyat sistemində əgər xanımlar ayaq üstündə dururlarsa, onda kişilərə oturmamaq lazımdır.
* Etik qaydalara görə kişinin xanımla görüşündə onun gecikməməsi lazımdır. Əksinə, kavaler bir neçə dəqiqə əvvəl gəlməli, çünki onun ləngiməsi xanımı utandıra və onu pis vəziyyətdə qoya bilər. Gözlənilməz hadisələrdə xəbərdarlıq etmək və gecikməyə görə üzr istəmək lazımdır.
* İstənilən yaşda istənilən qadına böyük predmetləri və böyük çantaları aparmağa kömək etmək lazımdır. Bunlara qadının əl çantası, yüngül kürk və ya manto daxil deyil, amma əgər sağlamlıq vəziyyətləri buna mane olursa, kömək etmək olar .
* Cəmiyyətdə üçüncü bir şəxslə xanım haqqında açıq danışıq qəbuledilməzdir, xüsusilə kişi şirkətində.
* Danışıq vaxtı kişinin əllərini sinəsində qatlaması və yaxud da əlini cibinə qoyması lazım deyil. Həmçinin əllərində müxtəlif predmetlər fırlatmaq da lazım deyil - bu həmsöhbətə hörmətsizlikdir.
* Kişi həmişə restorana birinci daxil olmalıdır. Bilinsin ki ödəniş kimin üzərinə düşəcək. Böyük şirkətlərdə - kimdən restorana dəvət alındısa və restorana daxil oldusa, ilk ödənişi də o etməlidir. Amma əgər ziyarətçilərin girişində kişi qapıçı ilə qarşılaşırsa, onda birinci qadını içəri buraxmalıdır.

## Gəlin toydan qaçan ərini avtobusda tapıb evləndi



**Hindistanda gəlin toydan qaçan bəyi yaxalayaraq nikah masasına əyləşdirib. Uttar Pradeş əyalətinin Bareilly şəhərində bir cütlük 2,5 illik münasibətini evliliklə taclandırmaq istəyib. Toy günü üçün bütün hazırlıqlar tamamlansa da, bəy orada olmayıb. Ölkədə "mandap" kimi tanınan toy mehrabının altında ənənəvi toy geyimində gözləyən gəlin bəyə zəng edərək onun harada olduğunu soruşub. Bəydən "anamı toya gətirirəm" cavabını alan gəlin buna inanmayıb və gələcək ərinin arxasınca gedib.**

Ən azı 20 kilometrlik iki saatlıq təqibdən sonra gəlin bəyi Bareilly kənarında avtobusda tapıb. Ailələrin dəstəyi ilə Bareilly kənarındakı məbədə gətirilən bəy burada gəlinlə evlənib. Bu əsnada iki ailə və ətrafdakılar gəlini "evliliyini qoruyan cəsarət"ə görə təbrik edib, bəyi isə "evlilik məsuliyyətindən qaçdığına" görə onu danlayıblar. Toy görüntülərində bəyin mərasimə gündəlik geyimində gəldiyi görülüb.

Səhifəni hazırladı: SELCAN

Redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 1359

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.